AZƏRBAYCAN RESPUBLİKASININ
MƏRKƏZİ BANKI

MALİYYƏ SABİTLİYİ HESABATI

2021

№ 1

Azərbaycan Respublikasının

Mərkəzi Bankı

MALİYYƏ SABİTLİYİ HESABATI*

*** Hesabat 2021-ci ilin dekabr ayı məlumatları əsasında hazırlanmışdır.**

ABBREVİATURALAR

AMB – Azərbaycan Respublikasının Mərkəzi Bankı

AİKZF - Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondu

ARDNF – Azərbaycan Respublikası Dövlət Neft Fondu

AİB – Asiya İnkişaf Bankı

AVM – Açıq Valyuta Mövqeyi

BGN – Borcun gəlirə nisbəti

BOKT – Bank olmayan Kredit Təşkilatı

BVF – Beynəlxalq Valyuta Fondu

DB – Dünya Bankı

DGK – Dövlət Gömrük Komitəsi

DQK – Dövlət Qiymətli Kağızları

DSK – Dövlət Statistika Komitəsi

HP – Hodrik Preskott filtri

FŞ – Fiziki şəxs

f.b. – Faiz bəndi

İEÖ – İnkişaf etmiş ölkələr

İEOÖ – İnkişaf etməkdə olan ölkələr

QİK – Qeyri-işlək kreditlər

QKDK – Qeyri dövlət qiymətli kağızları

HŞ – Hüquqi şəxs

KA – Kapital adekvatlığı

KAƏ – Kapital adekvatlığı əmsalı

MKOS – Mikro, kiçik və orta sahibkarlıq

MV – Milli valyuta

ROA – Aktivlərin gəlirliliyi

ROE – Kapitalın gəlirliliyi

RÜÖA – Risk üzrə ölçülmüş aktivlər

ÜDM – Ümumi Daxili Məhsul

VKK – Vaxtı keçmiş kreditlər

WEO- Dünya İqtisadiyyat İcmalı

XV – Xarici Valyuta

Mündəricat

Qısa xülasə 5
Qlobal makroiqtisadi şərait 7
Azərbaycanda maliyyə institutlarının fəaliyyət göstərdiyi makroiqtisadi mühit 10
Bank sisteminə ümumi baxış. 15
Bank sistemi üzrə kredit riski 29
Bank sistemi üzrə bazar riski 32
Bank sistemi üzrə likvidlik riski 36
Bank sisteminin mənfəətliliyi 39
Bank sisteminin kapital mövqeyi 43
Bank sistemində dayanıqlığın qiymətləndirilməsi 47
Bank olmayan kredit təşkilatları 50
Sığorta sektoru 53
Kapital bazarı 61

Qısa xülasə

2021-ci il qlobal iqtisadi artımın bərpası və mürəkkəb geostrateji proseslər fonunda təchizat zəncirində problemlər, enerji qiymətlərində dəyişkənlik və dünya ölkələrində inflyasiya təzyiqlərinin artması ilə xarakterizə olunur.

Pandemiyanın ölkə iqtisadiyyatına mənfi təsirinin aradan qaldırılması məqsədilə hökumət və Mərkəzi Bank tərəfindən pandemiyadan təsirlənmiş biznes subyektləri, əhalinin və maliyyə bazarı iştirakçılarının dəstəklənməsi istiqamətində kompleks fiskal, monetar və makroprudensial tədbirlər reallaşdırılmış, nəticədə makroiqtisadi və maliyyə sabitliyi təmin edilmişdir. Pandemiyanın təsirlərinin və risklərin səngiməsi fonunda Mərkəzi Bank tərəfindən requlyativ yumşalma rejimindən çıxış strategiyası hazırlanmış və həyata keçirilmişdir.

İl ərzində bank sektoru qlobal pandemiyanın təsirlərinin səbəb olduğu qeyri-müəyyənliklər şəraitində fəaliyyət göstərməsinə baxmayaraq kənar şoklara qarşı dayanıqlı olmuşdur. Bu son illər ərzində aparılmış makroprudensial siyasət çərçivəsinin sərtləşdirilməsi, bankların risk menecment və kredit anderraytinq siyasətinin yaxşılaşdırması, likvidlik və kapital mövqelərinin möhkəmləndirilməsi nəticəsində bank sektorunun xarici şoklara qarşı dayanıqlığının artırılması və potensial riskləri absorbsiya potensialının güclənməsi ilə əlaqədardır.

Aktivlərin keyfiyyətində müşahidə olunan müsbət dinamika və kredit təşkilatlarının riskləri daha təkmil idarə etməsi fonunda kredit riskində azalma müşahidə edilmişdir. Ötən illər ərzində yaradılmış məqsədli ehtiyatlar bankların potensial kredit risklərini absorbsiya etmək potensialını yüksəltmişdir.

Bank sektorunun likvidliyi komfort zonada olmaqla mümkün şoklara qarşı dayanıqlıdır. Sektor üzrə ani likvidlik əmsalı minimum normativdən 2 dəfəyə qədər çoxdur.

Bank sisteminin valyuta mövqeyi prudensial tələblərə cavab verməklə sistem üzrə məzənnə risklərini azaltmağa imkan verir. Eyni zamanda, faiz dərəcəsi risklərinin sektorun kapital mövqeyinə təsiri minimaldır. Depozit və kredit portfeli üzrə 2016-cı ildən başlanmış de-dollarlaşma prosesi davam etməkdədir.

Bank sistemi mənfəətliliyini qoruya bilmişdir. Sektorun kapital mövqeyi tələb olunan prudensial normativləri üstələyir və potensial riskləri absorbsiya etmək imkanına malikdir.

Pandemiyanın mənfi təsirlərinə baxmayaraq il ərzində sığorta sektorunun əsas maliyyə göstəricilərində artım dinamikası müşahidə edilmişdir. Bununla belə, bençmark ölkələrlə müqayisədə sığorta sektorunun penetrasiya səviyyəsi aşağıdır. Sığorta sektorunun investisiya portfelini əsasən dövlət qiymətli kağızları və bank depozitləri təşkil edir. Sığorta şirkətləri dövlət qiymətli kağızlarının 1/3 hissəsinə sahib olmaqla maliyyə sistemində mühüm institusional investor kimi çıxış edir. İl ərzində sığorta sektoru mənfəətliliyini qorumuşdur. Sektorun kapital mövqeyi tələb olunan prudensial tələbləri üstələyir.

Kapital bazarında maliyyə sisteminin vasitəçiliyində rolu digər sektorlarla müqayisədə məhduddur. Dövlət qiymətli kağızları qiymətli kağızlar bazarının əsas drayveridir. Bununla belə, korporativ qiymətli kağızlar bazarı və REPO bazarında müsbət dinamika və meyillər müşahidə olunur.

Qlobal makroiqtisadi şərait

Pandemiya ilə mübarizə çərçivəsində kütləvi vaksinasiya fonunda qlobal iqtisadi artımın bərpasına baxmayaraq, Covid-19 virusunun yeni mutasiyaları ilə bağlı qeyri-müəyyənlik, mürəkkəb geostrateji proseslər fonunda təchizat zəncirində yaranan problemlər, enerji və ərzaq qiymətlərində kəskin dəyişkənlik və yüksək inflyasiya qlobal maliyyə sabitliyi üzrə əsas riskləri təşkil edir. BVF-nin hesablamalarına əsasən qlobal iqtisadi artım 2021-ci ildə 5.9% təşkil etmişdir. İEOÖ-də iqtisadiyyatın artımı daha yüksək səviyyədə olmuşdur (6.5%). Lakin, Covid-19 virusunun yeni variantı olan Omikronun yayılması qeyri-müəyyənlikləri artırmışdır. Belə ki, BVF tərəfindən 2021-ci ilin oktyabr ayında 2022-ci il üzrə qlobal iqtisadiyyatda 4.9% artım gözlənilsə də, yaranmış qeyri-müəyyənliklər səbəbindən 2022-ci ilin yanvar ayında gözləntilər 0.5% aşağı salınmış və qlobal iqtisadi artımın 4.4% olacağı proqnozlaşdırılmışdır.

Qrafik 1. Real ÜDM artım proqnozları, faizlə



Mənbə: BVF, Dünya İqtisadiyyat İcmalı (WEO) 2022 Yanvar

Qlobal iqtisadi artımın sürətlənməsi nəticəsində tələbdə müşahidə olunan artım və təchizat zəncirində zəif bərpa həm İEÖ, həm də İEOÖ üzrə inflyasiyanın əhəmiyyətli dərəcədə artmasına gətirib çıxarmışdır. Xüsusilə İEÖ-də istehlak mallarına artan tələbat pandemiya zamanı qlobal təchizat zəncirinin həddindən artıq yüklənməsinə səbəb olmuşdur. Nəticədə, loqistika prosesinin ləngiməsi və inventarların aşağı səviyyəsi istehlak mallarının qıtlığına və qiymət artımına səbəb olmuşdur. BVF-nin proqnozlarına əsasən inflyasiyanın bir müddət yüksək olaraq qalması, 2022-ci ildə qabaqcıl iqtisadiyyatlarda 3.9%, inkişaf etməkdə olan bazarlarda isə 5.9% olması və 2023-cü ildə isə stabilləşməsi gözlənilir.

Artan inflyasiya təzyiqləri mərkəzi bankların pul siyasətinin sərtləşməsini şərtləndirir. Nəticədə, növbəti dövlərdə real faiz dərəcələrinin əhəmiyyətli dərəcədə artması riski qısa müddətdə iqtisadi canlanmanı zəiflədə bilər. İnkişaf etmiş ölkələrin uzun müddətdir davam edən yumşaq monetar siyasətdən çıxışı qabaqcıl iqtisadiyyatlarda faiz dərəcələrinin artmasını şərtləndirəcək ki, bu da öz növbəsində İEOÖ-dən kapital axınına səbəb olmaqla onların valyuta ehtiyatları və fiskal mövqelərinə mənfi təsir edə bilər.

İqtisadi aktivliyin artması fonunda qlobal əmtəə qiymətləri kəskin şəkildə artmışdır. Son bir il ərzində tələbin həcmində artım xam neftin orta qiymətinə təsir etmişdir. Enerji İnformasiya Administrasiyasının (EİA) məlumatlarına əsasən 2021-ci ildə Brent markalı neftin bir barelinin orta qiyməti 70.89 ABŞ dolları təşkil etmişdir. EİA-nın 2022-ci ilin fevral ayında elan etdiyi proqnozlarına əsasən 2022-ci ildə neftin orta qiyməti 83 ABŞ dolları, 2023-ci ildə isə 68 ABŞ dolları səviyyəsində gözlənilir.

Qrafik 2. Əmtəə qiymətlərinin dəyişməsi, faizlə



Mənbə: BVF, Dünya İqtisadiyyat İcmalı (WEO) 2022 Yanvar

Ölkə qrupları üzrə fiskal kəsirdə azalma müşahidə olunur. Post-pandemiya dövründə bir çox ölkələrdə pandemiya ilə bağlı fiskal dəstəyin azalması ilə əlaqədar həm İEÖ-də, həm də İEOÖ-də fiskal kəsirin ÜDM-də payı azalır. Lakin, inflyasiyanın kəskin artımının qarşısını almaq üçün Mərkəzi bankların monetar siyasəti sərtləşdirməsi xarici valyutada borc alan İEOÖ-də fiskal kəsirin gözlənilən daha sürətlə artması riski yaradır. Bundan əlavə, epidemioloji vəziyyətin yaxşılaşması ilə dövlət xərclərinin istiqaməti pandemiya ilə mübarizə tədbirlərindən iqtisadiyyatın bərpasının dəstəklənməsinə və post-pandemiya dövrünə transformasiyasına doğru dəyişmişdir. Pandemiyanın təsiri nəticəsində qlobal iqtisadiyyatda 2020-ci ildə kəskin şəkildə artan dövlət borcunun ÜDM-ə nisbəti 2021-ci ildə azalsa da, pandemiya ilə bağlı qeyri-müəyyənliklər, yüksək inflyasiya və artan faiz dərəcələri dövlət borcunun pandemiyadan öncəki səviyyəsinin bərpasına mane olur.

Cədvəl 1. Fiskal balansın və dövlət borcunun ÜDM-də payı, faizlə

	Fiskal balans				Dövlət borcu			
			Proqnoz				Proqnoz	
	2020	**2021**	**2022**	**2023**	**2020**	**2021**	**2022**	**2023**
Dünya iqtisadiyyatı	**-10.2**	**-7.9**	**-5.2**	**-4.2**	**98.6**	**97.8**	**96.9**	**97.0**
İEÖ	***-10.8***	***-8.8***	***-4.8***	***-3.6***	***122.7***	***121.6***	***119.3***	***119.3***
ABŞ	-14.9	-10.8	-6.9	-5.7	133.9	133.3	130.7	131.1
Avrozona	-7.2	-7.7	-3.4	-2.4	97.5	98.9	96.3	95.4
Yaponiya	-10.3	-9.00	-3.9	-2.1	254.1	256.9	252.3	250.8
İEOÖ	***-9.6***	***-6.6***	***-5.8***	***-5.2***	***64.0***	***64.3***	***65.8***	***67.1***
Asiya	-10.8	-7.9	-7.0	-6.2	67.3	70.1	72.4	74.2
Avropa	-5.6	-3.2	-2.4	-2.1	38.0	36.6	36.7	36.8
Latın Amerikası	-8.8	-5.7	-4.9	-4.2	78.1	73.0	73.6	74.2
Neft istehsalçıları	-7.5	-4.2	-2.2	-1.6	58.0	54.1	52.9	52.2

Mənbə: BVF, Fiskal Monitor, 2021 Oktyabr

Azərbaycanda maliyyə institutlarının fəaliyyət göstərdiyi makroiqtisadi mühit

2021-ci ildə pandemiya ilə bağlı qeyri-müəyyənliklərin mövcudluğu və artan inflyasiya təzyiqlərinə baxmayaraq makroiqtisadi sabitlik qorunmuşdur. Ötən il ərzində pandemiyanın mənfi təsirlərinin azalması fonunda ölkə iqtisadiyyatında artım müşahidə olunub. 2021-ci il ərzində ÜDM real ifadədə 5.6% artaraq 92.9 mlrd. manat təşkil etmişdir. ÜDM-də artım həm neft, həm də qeyri-neft sektoru hesabına olmuşdur. Belə ki, il ərzində neft-qaz sektorunda istehsal olunmuş əlavə dəyərdə 1.8%, qeyri neft-qaz sektorunda isə 7.2% artım müşahidə olunub. Qeyri-neft sektoru iqtisadi artımın əsas drayveri olmuşdur. ÜDM-in 62.2%-i qeyri-neft sektorunun hesabına formalaşmışdır.

2021-ci il üzrə qeyri-neft sektorunun əksər sahələri üzrə iqtisadi artım bərpa olunmuşdur. Qeyri-neft ÜDM-in əsas drayverləri: ı) qeyri-neft sənayesi – 18.9%, ıı) nəqliyyat – 16% və ıı) ticarət– 5.3 % olub. Pandemiyanın mənfi təsirlərinin azalması nəticəsində turizm və ticarət sektorunda 2020-ci ildə müşahidə olunan azalma artım trendi ilə əvəz olunmuşdur.

Qrafik 3. Qeyri-neft sektoru sahələrinin iqtisadi artım tempi



Mənbə: DSK

DSK-nin məlumatlarına əsasən 2021-ci il ərzində ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün əsas kapitala 16 mlrd. manat vəsait yönəldilib. Bütövlükdə, il ərzində əsas kapitala yönəldilmiş vəsaitin 11.8 mlrd. manat hissəsi və ya 73.1%-i daxili mənbələrdən maliyyələşmişdir.

Qrafik 4. Əsas vəsaitə investisiyaların strukturu

Mənbə: DSK

Əhalinin nominal gəlirləri və nominal əmək haqlarında artım müşahidə edilmişdir. 2021-ci ilin sonuna iqtisadi fəal əhalinin sayı 5303.9 min nəfər olmuşdur ki, onlardan 4988.2 min nəfərini məşğul əhali təşkil etmişdir. Muzdlu işçilərin orta aylıq nominal əmək haqqı 2021-ci il ərzində 3.4% artaraq 732.1 manat təşkil etmişdir. Əhalinin nominal gəlirləri 2020-ci illə müqayisədə 2021-ci ildə 2.6 % artaraq 57.2 mlrd. manat təşkil etmişdir. Əhalinin nominal gəlirləri və nominal əmək haqlarında artım dinamikası istehlak davranışlarına təsir etməklə məcmu daxili tələbin bərpasını dəstəkləmişdir. Muzdla çalışan işçilərin sayı 1705.1 min nəfər təşkil etmişdir ki, onların 53%-i (904.7 min nəfər) dövlət sektorunda, 46.9%-i (800.4 min nəfər) isə qeyri-dövlət sektorunda çalışmışdır.

Qlobal inflyasiyanın yüksəlməsi, həmçinin xərc amillərinin təsiri altında il ərzində inflyasiya səviyyəsinin artımı müşahidə edilmişdir. DSK-nın məlumatlarına əsasən 2021-ci ildə 12 aylıq inflyasiya 12% və orta illik inflyasiya isə 6.7% təşkil etmişdir. Ümumi inflyasiyanın artımına ərzaq məhsullarındakı qiymət artımı daha çox təsir etmişdir. Belə ki, ərzaq məhsulları üzrə 12 aylıq inflyasiya 15.8% təşkil etmişdir. İnflyasiyanın digər komponentləri olan qeyri-ərzaq məhsulları və xidmətlər üzrə illik bahalaşma templəri müvafiq olaraq 7.7% və 10% təşkil etmişdir. Ümumilikdə, inflyasiyaya dünya ərzaq qiymətlərinin bahalaşması, ticarət tərəfdaşı ölkələrdə inflyasiyanın artması və artan məcmu tələb təsir göstərmişdir. Mərkəzi bank tərəfindən həyata keçirilən monetar siyasət inflyasiyanın hədəf diapozonuna qaytarılmasına yönəldilmişdir. Belə ki, Mərkəzi Bank tərəfindən ilin ikinci yarısından etibarən uçot dərəcəsi 3 dəfə ardıcıl yüksəldilərək 6.25%-dən 7.25%-ə (aşağı hədd 6%, yuxarı hədd 8.25%) qaldırılmışdır. Bundan əlavə, qiymətlərin yuxarı səviyyədə və qalıcı olmasının qarşısının alınması üçün 21 fevral 2022-ci il tarixində "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi ilə bağlı təxirəsalınmaz tədbirlər haqqında" sərəncam imzalanmışdır. İşgüzar aktivliyə və əhalinin sosial rifahına inflyasiyanın təsirlərini minimallaşdırmaq və inflyasiyanın mənfi təsirlərinin azaldılması istiqamətində müvafiq tədbirlər görülməsi məqsədilə Nazirlər Kabineti yanında işçi qrupu yaradılmışdır.

Qrafik 5. İdxal və ixracın dinamikası, mlrd. manatla



Mənbə: DGK

İl ərzində xarici ticarət mövqeyi pandemiyanın təsirinin azalması ilə qlobal iqtisadi artım tempinin bərpası və əsas ixrac məhsullarının qiymətlərinin dəyişməsi şəraitində formalaşmışdır. DGK-in məlumatları əsasında 2021-ci il üzrə ixrac ötən illə müqayisədə 62% (8.5 mlrd. ABŞ dolları) artaraq 22.2 mlrd. ABŞ dolları, idxal isə 9% (1.0 mlrd. ABŞ dolları) artaraq 11.7 mlrd. ABŞ dolları təşkil etmişdir. 2021-ci ildə qeyri neft-qaz məhsullarının ixracı əvvəlki illə müqayisədə 42.8 % artaraq 2.7 mlrd. ABŞ dolları təşkil edib ki, bu da pandemiyadan öncəki səviyyədən yüksəkdir. İxracda yüksək artım həm qlobal enerji bazarlarında artan tələbat fonunda xam neftin ixracının artması, həm də qeyri-neft ixracatının artması ilə əlaqədar olmuşdur.

Qrafik 6. Mərkəzi Bankın və Dövlət Neft Fondunun valyuta ehtiyatları, mlrd. ABŞ dolları



Mənbə: AMB, ARDNF məlumatları əsasında

Strateji valyuta ehtiyatlarının uzunmüddətli artım dinamikası davam edir. 2016-cı ildən etibarən valyuta ehtiyatlarında müşahidə olunan artım 2021-ci ildə də davam etmişdir. Artım həm ARDNF-in vəsaitləri, həm də AMB-nin valyuta ehtiyatları hesabına baş vermişdir. Mərkəzi Bankın valyuta ehtiyatlarında 2016-cı ildən bəri artım tendensiyası davam etməklə 2021-ci ildə 7.1 mlrd. dollara çatmışdır. Bütövlükdə, il əzində valyuta ehtiyatlarının həcmi son 5 ilin maksimumuna çatıb.

Dövlətin fiskal dəstəyi pandemiyanın mənfi təsirlərinin aradan qaldırılmasında və iqtisadi aktivliyin bərpasında həlledici rol oynamışdır. COVİD-19 pandemiyasının iqtisadi artıma təsirinin azaldılması, habelə əhalinin rifah halının dəstəklənməsi istiqamətində tədbirlərin həyata keçirilməsi və işğaldan azad olunmuş torpaqların bərpası fonunda büdcə xərcləri artmışdır. 2021-ci ili dövlət büdcəsi 1.0 mlrd. manat kəsir ilə yekunlaşmışdır ki, bu da ÜDM-in 1.1 faizini təşkil edir. İl ərzində dövlət büdcəsinin gəlirləri 26.4 mlrd. manat, xərcləri 27.4 mlrd. manat təşkil etmişdir. 2022-ci ildə dövlət büdcəsinin gəlirlərinin 26.8 mlrd manat, xərclərinin 29.9 mlrd manat olması proqnozlaşdırılmışdır. Habelə, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası məqsədilə 2.2 mlrd manat vəsait ayrılmışdır. 2022-ci il üzrə büdcə xərclərinin artımı fonunda büdcə kəsirinin yuxarı həddi 3.1 mlrd. manat müəyyən olunmuşdur.

Qrafik 7. Dövlət büdcəsinin gəlir və xərcləri, mlrd. manatla



Mənbə: Maliyyə Nazirliyi

Beynəlxalq təşkilatlar tərəfindən Azərbaycanda növbəti illər üzrə iqtisadi artımın davam etməsi proqnozlaşdırılır. 2021-ci ilin birinci yarısından etibarən karantin rejimin yumşaldılması və peyvəndləmə prosesinin sürətlə davam etdirilməsi iqtisadi aktivliyin bərpasına zəmin yaratmışdır. Beynəlxalq təşkilatların proqnozlarına əsasən 2022-ci il üzrə ÜDM artımının 2.3-3.1% aralığında olması proqnozlaşdırılır.

Qrafik 8. Beynəlxalq təşkilatların Azərbaycan üzrə real ÜDM artım proqnozları



Mənbə: Beynəlxalq təşkilatların rəsmi məlumatları

Fitch və S&P kimi beynəlxalq reytinq agentlikləri 2022-ci ildə ölkənin suveren reytinqini “BB+” olmaqla, “stabil” baxışda qiymətləndirib. COVİD 19-un yeni mutasiyaları ilə bağlı qeyri-müəyyənlik, qlobal inflyasiyanın yüksək səviyyəsi risk olaraq qalsa da, iqtisadi artımın sürətli bərpası, qlobal bazarlarda yüksək enerji qiymətləri, ölkənin artan müsbət ticarət saldosu və strateji valyuta ehtiyatlarının artması maliyyə sisteminin fəaliyyət göstərdiyi makroiqtisadi mühitin sabitliyini qoruyub saxlamağa imkan verir.

Bank sisteminə ümumi baxış

2021-ci ildə vaksinasiya prosesinin sürətlənməsi, Covid-19 virusuna görə epidemioloji məhdudiyyətlərin yumşaldılması iqtisadiyyatın, o cümlədən bank sektorunun müsbət dinamikasını şərtləndirmişdir. İl ərzində bank sektoru üzrə mənfəətlilik, likvidlik və kapitallaşma üzrə maliyyə göstəricilərinin dinamikası müsbət zonada olmuşdur. Aparılmış təhlillər, maliyyə sisteminin xarici şoklara qarşı dayanıqlığının yüksək olduğunu nümayiş etdirir[1].

- ***Bank sisteminin maliyyə vasitəçiliyində rolu:***

Ölkədə bank-əsaslı maliyyələşmə modeli mövcuddur. 2021-ci il üzrə maliyyə sektorunun aktivləri 40.3 mlrd. manat təşkil edir ki, bu da ÜDM-in 43.4%-nə (qeyri-neft ÜDM-in 69.7%) bərabərdir. Maliyyə sistemi üzrə əsas vasitəçi funksiyasını bank sektoru həyata keçirir. Belə ki, bank sektorunun aktivləri maliyyə sisteminin aktivlərinin 95.5%-ni, sığorta şirkətləri 3.3%-ni, investisiya şirkətləri və bank olmayan kredit təşkilatları (BOKT) 1.2%-ni təşkil edir. Bank sektorunun maliyyə vasitəçiliyini xarakterizə edən əsas göstəricilərdən biri olan bank aktivlərinin ÜDM-ə nisbəti göstəricisi 41.4% təşkil etmişdir. Qeyd edək ki, bu göstəricinin bençmark ölkələrlə müqayisədə (Gürcüstan – 117%, Qazaxıstan – 44%, Polşa – 105%) aşağı olması bank sektorunun gələcək artım potensialını ifadə edir.

Qrafik 9. Maliyyə sisteminin aktivləri



Mənbə: AMB

Ölkədə 26 bank fəaliyyət göstərir. Bu banklardan 2-si dövlət bankıdır. Xarici kapitallı bankların sayı 12, o cümlədən, xarici bankların yerli filiallarının sayı 2-dir. Sektorun xidmət şəbəkəsi 479 filial, 97 şöbə, 2 907 ATM, 20.3 min nəfər işçidən ibarətdir. Qeyd edək ki, il ərzində filialların sayı 5.2% (24 filial), ATM-lərin sayı 7% (192 ATM), işçilərin sayı isə 8.6% (1621 işçi) artmışdır.

[1] *Bank sektorunun təhlili bankların prudensial hesabatlığı əsasında aparılmışdır.*

- ***Bank sektorunun aktiv və öhdəliklərinin dinamikası***

İqtisadi artımın bərpası və daxili tələbin genişlənməsi fonunda il ərzində bank sektorunun balansının əhəmiyyətli genişlənməsi müşahidə edilmişdir. İl ərzində bank sektorunun aktivləri 20% (6.4 mlrd. manat) artaraq 38.5 mlrd. manat təşkil etmişdir. Öhdəliklər isə 22% (6.1 mlrd. manat) artaraq 33.5 mlrd. manat təşkil etmişdir.

2021-ci ilin sonu üzrə bank sektorunun aktivlərinin 40.3%-i xalis kredit portfeli, 36.1%-i likvid aktivlər, 5.7%-i maliyyə institutlarına yerləşdirilmiş depozit və kreditlər, 17.9%-i isə digər aktivlər təşkil edir. Bank sektorunun öhdəlikləri isə əsasən hüquqi şəxslərin depozitləri hesabına formalaşıb. Belə ki, öhdəliklərin 53.5 %-i hüquqi şəxslərin depozitləri, 27.0 %-i fiziki şəxslərin depoziltəri, 12.2%-i maliyyə institutları qarşısında öhdəliklər, 7.3 %-i digər öhdəliklər təşkil edir.

Qrafik 10. Bank sisteminin aktiv və öhdəliklərinin dinamikası, mlrd. manatla



Mənbə: AMB

Aktivlərin həcmi 2015-2016-cı il qlobal maliyyə böhranına qədər müşahidə edilmiş səviyyəni keçmişdir. İl ərzində iqtisadiyyatın tədricən bərpası fonunda aktiv və öhdəliklərin stabil artımı müşahidə edilmişdir. Bank sektorunun cəlb etdiyi resursların artımı iqtisadiyyatın şəffaflaşması prosesi və nağdsız əməliyyatların artımı nəticəsində hüquqi şəxslərin depozitlərinin artımı həmçinin, bank sisteminə inamın əsas göstəricisi hesab olunan fiziki şəxslərin depozitlərinin artımı ilə dəstəklənmişdir. Qeyd edək ki, il ərzində hüquqi şəxslərin depozitləri 41%, fiziki şəxslərin depozitləri isə 12% artmışdır. Eyni zamanda, bank sisteminin cəlb etdiyi vəsaitlərin kredit portfelinə transformasiyası da müşahidə edilməkdədir. Belə ki, il ərzində kredit portfelində 17.7% artım müşahidə edilmişdir.

Qrafik 11. Bank sisteminin aktiv və öhdəliklərinin strukturunun dinamikası, mlrd. manatla



Mənbə: AMB

- ***Bank sistemində təmərküzləşmə***

Azərbaycan bank sistemində təmərküzləşmə səviyyəsi aşağı və orta təmərküzləşmə sərhədindədir. Təmərküzləşmənin qiymətləndirilməsi üçün beynəlxalq təcrübədə geniş istifadə olunan Herfindahl-Hirschman İndeksi - HHİ[2] bank sistemində aşağı və orta səviyyəli təmərküzləşməni göstərir. Bunun səbəbi sektorda xırda və orta həcmli bankların sayının çox olmasıdır. Belə ki, kredit portfeli, depozit portfeli və aktivlərin sistem üzrə payına görə HHİ müvafiq olaraq 1017, 1741 və 1567 təşkil edir. Bu da kredit portfeli üzrə sektorun aşağı səviyyədə, aktivlər üzrə sektorun orta səviyyədə təmərküzləşmə (1500>) sərhədi ətrafında, depozit portfeli üzrə isə orta səviyyədə təmərküzləşmənin olduğunu göstərir. Qeyd edək ki, son 3 ildə sektorda təmərküzləşmənin artımı müşahidə olunur.

Qrafik 12. HHİ indeksi



Mənbə: AMB

[2] HHİ indeksi beynəlxalq təcrübədə bazarlarda rəqabətliliyin səviyyəsi və təmərküzləşməni qiymətləndirmək üçün istifadə olunur. Amerika Birləşmiş Ştatların Ədliyyə departamentinin təcrübəsinə əsasən bu indeks əsasında bazarlar 3 hissəyə ayrılır: aşağı səviyyədə təmərküzləşmiş bazarlar (HHİ<1500), orta səviyyədə təmərküzləşmiş bazarlar (1500<HHİ<2500), yüksək səviyyədə təmərküzləşmiş bazarlar (HHİ>2500). HHI-ın dəyəri 0-10000 arasında dəyişə bilər.

Bank sektorunun kövrəklik indeksində (BSFI) yaxşılaşma müşahidə olunur. Beynəlxalq təcrübədə geniş istifadə olunan BSFI indeksi bank sektorunun dayanıqlılığını qiymətləndirir. İndeks özəl sektora verilmiş kreditlər, xarici borc öhdəlikləri və əhalinin əmanətlərinin standart kənarlaşmasının orta qiyməti olaraq müəyyən edilir. İndeksin kəskin dəyişməsi sektorun dayanıqlılığına təsir kimi qiymətləndirilir. 2020-ci ilin sonuna sektorun kövrəklik indeksi[3] ilin əvvəli ilə müqayisədə azalaraq "-0.65" təşkil etmişdir ki, bu da pandemiya və qapanmalar şəraitində risk səviyyəsinin artdığını göstərirdi. 2021-ci il ərzində isə iqtisadi artımın bərpası və bankların balansının genişlənməsi fonunda indeks yaxşılaşaraq "0.20" təşkil etmişdir.

Qrafik 13. BSFİ indeksi



Mənbə: AMB

- ***Bank sektoru üzrə cəlb olunmuş resurslar***

Bankların öhdəliklərinin 80.4%-i fiziki və hüquqi şəxslərin depozit portfeli təşkil edir. İl ərzində sektorun depozit portfeli 30.0% (6.2 mlrd. manat) artaraq 26.9 mlrd. manat təşkil etmişdir. Depozit portfelinin 27.4%-ni müddətli, 72.6%-ni isə tələbli depozitlər təşkil edir. Sektorun depozit portfelinin əsasən tələbli depozitlər hesabına formalaşması banklarda iri həcmdə likvidlik buferinin saxlanmasını zəruri etməklə uzunmüddətli maliyyələşmə imkanlarını məhdudlaşdırır.

[3] Kövrəklik indeksi [-0.5; və aşağı) aralığında kövrəklik və risklərin reallaşmasının ehtimalının yüksək olması, (-0.5; 0) aralığında bank sistemi orta kövrəklik, (0; 0,5) aralığında bank sisteminin yüksək artım tempi ilə inkişaf etməsi və potensial risklərin akkumulyasiyası, [0.5; və yuxarı) olduqda isə bank sistemində hərarətlənmə və köpüklərin yaranması deməkdir.

Sektorun əsas maliyyələşmə mənbəyi kimi hüquqi şəxslərin depozitləri çıxış edir. Bankların depozit portfelinin 66.5%-i hüquqi şəxslərin depozitləri təşkil edir. Bütövlükdə, hüquqi şəxslərin depozitlərinin öhdəliklərdə payı 53.5%-dir. İl ərzində hüquqi şəxslərin depozitləri 41.2% (5.22 mlrd. manat) artaraq 17.9 mlrd. manat təşkil edib. Bu artımın 99.7%-i tələbli depozitlərin artımı hesabınadır (5.21 mlrd. manat artım). Hüquqi şəxslərin depozitlərinin 88.5%-i (15.9 mlrd. manat) tələbli depozitlər hesabına formalaşmışdır.

Qrafik 14. Fiziki və hüquqi şəxslərin depozit portfelinin dinamikası, mlrd. manatla



Mənbə: AMB

Əmanətlərin sığortalanması mexanizminin yenilənmiş çərçivəsi fonunda bankların əmanət portfelində artım müşahidə edilmişdir. 2021-ci ilin aprel ayından əmanətlərin sığortalanması mexanizmi təkmilləşdirilmişdir. Fiziki şəxslərin qorunan əmanətləri üzrə kompensasiya məbləği 30 min manatdan 100 min manata (xarici valyutada 100 min manat ekvivalentinədək) artırılmış, fərdi sahibkarlıqla məşğul olan fiziki şəxslərin depozitləri əmanətlərin sığortalanması mexanizmi ilə əhatə olunmuş (kompensasiya məbləği 20 min manat müəyyən edilmişdir), eyni zamanda, notariusların depozit hesablarında fiziki şəxslərə məxsus pul vəsaitləri tam məbləğdə sığortalanmışdır. Əmanətlərin sığortalanması sisteminin yeni arxitekturası əmanətçilərin mütləq əksəriyyətinin əmanətinin tam qorunmasına, banklarda risk idarəetməsinin təkmilləşdirilməsinə, bazar intizamı və rəqabət mühitininin gücləndirilməsinə, beləliklə bank sisteminin dayanıqlığı və əmanətçilərin mənafelərinin etibarlı qorunmasına imkan verir. Yeni çərçivənin əmanətçilərin bank sisteminə etimadını gücləndirməsi fonunda bankların əmanət portfelində müsbət dinamika müşahidə edilmişdir. Belə ki, sektor üzrə fiziki şəxslərin depozit portfeli il ərzində 988 mln manat (12%) artaraq 9 032 mln manat təşkil etmişdir (cəmi depozit portfelinin 33.5%-i). Hazırda, fiziki şəxslərin depozitləri bankların öhdəliklərinin 27%-ni təşkil edir. Əmanətlərin məbləğinin artması ilə yanaşı onun strukturunda da müsbət meyillər müşahidə edilib. İl ərzində, əmanətlərin dollarlaşması 9.6 f.b. azalaraq 41.7% təşkil etmişdir. Uzunmüddətli və dayanıqlı maliyyələşmə resursu olan müddətli depozitlərin fiziki şəxslərin cəmi depozitlərində payı 59% (5.3 mlrd. manat) təşkil edir.

Sektorun xarici borcu azalmaqda davam edir. 2017-2020-ci illər ərzində bankların xarici borcu 2 dəfədən çox, il ərzində isə 14.3% (63 mln. ABŞ dolları) azalaraq 383 mln. ABŞ dolları təşkil etmişdir[4]. Öhdəliklərin strukturunda bankların xarici borcunun payı cəmi 1.9% olmuşdur. Banklar tərəfindən cəlb olunmuş xarici borc ödənişlərinin yalnız 27%-i növbəti 1 ilin payına düşür.

Qrafik 15. Xarici borcun dinamikası, mln. ABŞ dolları



Mənbə: AMB

Hüquqi şəxslərin tələbli depozitləri bankların resurs bazasının əsas drayveridir. 2013-2016-cı illər ərzində resurslar əsasən maliyyə sektorundan cəlb edilsə də, 2017-ci ildən sonra resursların əsas hissəsi hüquqi şəxslərin tələbli depozitlərindən formalaşmışdır. 2016-cı ildə qəbul edilmiş nağdsız hesablaşmalar haqqında qanunun tətbiqi həmçinin iqtisadiyyatının şəffaflaşdırılması istiqamətində görülmüş tədbirlər hüquqi şəxslərin tələbli depozitlərinin artımını şərtləndirmişdir. Hüquqi şəxslərin tələbli depozitlərinin 57%-i 1 milyon manatdan yuxarıdır. Hüquqi şəxslərin tələbli depozitlərində konsentrasiya səviyyəsi diqqətdə saxlanılır. Eyni zamanda 2016-cı ildən etibarən bank tərəfindən buraxılmış qiymətli kağızların da maliyyələşmədə payı artmışdır.

Qrafik 16. Bank sektoru üzrə cəlb olunmuş vəsaitlərin strukturunun dinamikası, mlrd. manatla



Mənbə: AMB

[4] Xarici borc dedikdə prudensial hesabatlıq əsasında bankların xarici maliyyə institutları və hüquqi şəxslərdən cəlb etdikləri müddətli öhdəliklər nəzərdə tutulur.

- ***Bank sisteminin kreditləşmə fəaliyyəti***

Post-pandemiya dövründə bankların kreditləşmə fəaliyyətinin bərpası müşahidə edilir. Ötən il ərzində kredit portfeli 17.7% (2.5 mlrd. manat) artaraq 16.7 mlrd. manat təşkil etmişdir. Pandemiya ilə bağlı yaranan qeyri-müəyyənliklər fonunda hökumət və AMB tərəfindən keçirilmiş sinxron tədbirlər cari ildə iqtisadi canlanmanı sürətləndirmişdir. Təhlillər kredit portfelinin dinamikası ilə iqtisadi aktivliyin dinamikası arasında yüksək korrelyasiyanın olduğunu göstərir (+0.79 korrelyasiya).

2021-ci il ərzində biznes kreditləri portfelinin həcmi 14.9 % (1.3 mlrd. manat) artaraq 9.7 mlrd. manat təşkil etmişdir. İl ərzində ipoteka portfeli 19% (383 mln. manat) artaraq 2.4 mlrd. manata çatmışdır. İpoteka portfelində baş verən artım əsasən dövlət ipoteka proqramı hesabına təmin edilmişdir.

Qrafik 17. Kredit portfeli və ÜDM-in artım tempinin müqayisəsi



Mənbə: AMB

Dövr ərzində istehlak kreditləri portfeli 23.4% (857 mln. manat) artaraq 4.5 mlrd. manat təşkil etmişdir. Pandemiya dövrü təxirə salınmış tələbin reallaşması, eyni zamanda əhalinin nominal gəlirlərində artım istehlak portfelinin artımını şərtləndirmişdir. Həyata keçirilən makroprudensial siyasət istehlak kreditləşməsinin dayanıqlı və sağlam müstəviyə keçirilməsinə yönəldilmişdir. İstehlak kreditləşməsinin yeni

Qrafik 18. Kredit portfelinin illik dinamikası, mln. manatla



Mənbə: AMB

makroprudensial siyasət çərçivəsində əlavə ehtiyatlanma və kapitallaşma üzrə yeni prudensial tələblər formalaşdırılmışdır. İstehlak kreditləşməsi üzrə izafi borclanmasının qarşısının alınması məqsədilə borc yükünün yuxarı həddi müəyyən edilmiş, BGN əmsalının 45%-dən yüksək olduğu halda əlavə ehtiyatlanma tələbi müəyyən edilmiş, xarici valyutada istehlak kreditlərinin verilişi yalnız xarici valyutada gəliri olan borcalanlara məhdudlaşdırılmış və bu növ kreditlər üçün ehtiyat tələbi daha da yüksəldilmiş, istehlak kreditlərinin müddəti üzrə məhdudlaşdırılmalar tətbiq edilmişdir. Kapitala dair yeni makroprudensial tələblər çərçivəsində BGN əmsalı, faiz dərəcəsi, müddət və valyutadan asılı olaraq risk üzrə ölçülmüş aktivlərin artırılması təmin olunmuşdur.

Qrafik 19. Kredit portfelinin strukturunun dinamikası, mlrd. manatla



Mənbə: AMB

Post-pandemiya dövründə iqtisadiyyatın bərpası biznes kreditlərinə artan tələb ilə müşayiət olunmuşdur. Ötən illə müqayisədə 2021-ci ildə biznes kreditləri portfeli 14.9% (1.3 mlrd. manat) artaraq 9.7 mlrd. manata çatmışdır. Biznes portfelinin artımı əsasən ticarət, xidmət və digər qeyri istehsalat sahələri üzrə formalaşmışdır. Biznes kreditləri cəmi kredit portfelinin 58%-ni təşkil etmişdir.

Qrafik 20. Biznes portfelinin illik dinamikası, mln. manatla



Mənbə: AMB

Bütövlükdə, il ərzində yeni verilmiş biznes kreditləri əvvəlki il ilə müqayisədə 1.3 mlrd. manat artaraq 6.7 mlrd. manat təşkil etmişdir.

Qrafik 21. Yeni verilmiş kreditlərin sahələr üzrə strukturunun dinamikası, mln. manatla



Mənbə: AMB

Bank sisteminin qarşısında duran əsas hədəflərdən biri real sektorun kreditləşdirilməsi üzrə fəallığı təmin etməkdir. Pandemiya dövründə aktiv anti-böhran tədbirləri və sahibkarların dəstəklənməsi üzrə tədbirlər biznes subyektlərinə mənfi təsiri minimallaşdırmış, likvidliyə çıxışı təmin etmişdir. Real sektorun maliyyələşməsində müəyyən irəliləyişlərə baxmayaraq, MKOS-ın maliyyə xidmətlərinə çıxışında bəzi maneələr qalmaqdadır. Maliyyələşməni məhdudlaşdıran faktorlardan biri MKOS-ların maliyyə hesabatlarının anderraytinq prosesi üçün zəruri olan tələblərə cavab verməməsidir. ABA tərəfindən aparılmış sorğuya əsasən banklar tərəfindən kreditləşməyən MKOS-ların 48%-in maliyyə hesabatları anderraytinq prosesi üçün yararlı deyildir. Bundan əlavə, təminatla bağlı məhdudiyyətlər və girovun ləğvi ilə bağlı çətinliklər MKOS-ların maliyyə çıxışını çətinləşdirən amillərdəndir.

Son illər ərzində mikro, kiçik və orta sahibkarların kreditləşməsində müsbət trendlər müşahidə edilir. Belə ki, 2018-ci il ilə müqayisədə MKOS-lara verilən kreditlərin həcmi 55% artaraq 4.5 mlrd. manata çatmışdır. 2020-ci ildə COVİD-19 pandemiyası nəticəsində MKOS-ın kreditləşmə həcmi azalsa da, 2021-ci ildə artım tendensiyası ilə əvəzlənmişdir. Belə ki, son il ərzində MKOS subyektlərinə verilmiş kreditlər 29% (1 mlrd. manat) artmışdır.

Qrafik 22. MKOS subyektlərinə verilən kreditlərin dinamikası, mlrd. manatla



Mənbə: AMB

Dövlət dəstək mexanizmləri ilə yanaşı, MKOS subyektlərinin kreditləşməsində bankların öz vəsaitlərinin də payı artmaqdadır. MKOS subyektlərinin kreditləşməsinin təminində dövlət dəstək mexanizmlərinin mühüm əhəmiyyəti vardır. 2018-ci ildə etibarən dövlət fondlarının vəsaitləri hesabına MKOS subyektlərinə verilmiş kreditlərin həcmi 58% artaraq 0.6 mlrd. manata çatmışdır. Son illər bankların öz vəsaitləri hesabına MKOS subyektlərinin maliyyələşməsində aktiv iştirakı müşahidə edilir. Belə ki, bankların öz vəsaiti hesabına verilmiş kreditlərin cəmi portfeldə payı son 3 ildə 9 f.b. artaraq 84%-ə çatmışdır. İKZF-nin fondunun zəmanət verdiyi MKOS kreditlərində də də artım müşahidə edilməkdədir. Belə ki, 2019-cu il ilə müqayisədə 2021-ci ildə zəmanət verilən MKOS kreditlərinin həcmi 4.8 dəfə artaraq 128 mln. manat təşkil etmişdir.

Qrafik 23. MKOS subyektlərinə verilmiş kreditlərin maliyyələşmə mənbələrinə görə strukturu



Mənbə: AMB

Pandemiya dövründə tətbiq edilən karantin tədbirlərinin aradan qaldırılması ilə təxirə salınmış tələbin reallaşması fonunda istehlak kreditlərinin artımı müşahidə olunmuşdur. Pandemiya zamanı təxirə salınmış tələbin 2021-ci ildə reallaşması ötən il ərzində istehlak portfeli üzrə artımın əsas drayveri olmuşdur.

İstehlak portfeli üzrə artım dinamikası diqqətdə saxlanılmaqdadır. 2020-ci ildən başlayaraq istehlak kreditlərinin sürətli artım dinamikası nəticəsində İstehlak/ÜDM nisbəti uzunmüddətli HP trendini üstələmişdir. Tənzimləyici orqan son illər istehlak kreditləşməsinin məhdudlaşdırılması üzrə makroprudensial siyasət yeritməkdədir. Həyata keçirilən siyasət banklarda risklərin təhlili və andrerraytinq prosesinin təkmilləşməsi, istehlak kreditləşməsinin dayanıqlı və sağlam müstəviyə keçirilməsi və məsuliyyətli borclanma vərdişləri aşılanması vasitəsilə izafi borclanmanın qarşısının alınmasına yönəlmişdir. Azərbaycanda istehlak portfelinin ÜDM-də payı 5% təşkil edir ki, bu da beynəlxalq bençmarklar ilə müqayisədə yüksək göstərici deyil.

Qrafik 24. İstehlak kreditləri portfelinin ÜDM-ə nisbəti, HP trendi %-lə



Mənbə: AMB

Haşiyə 1. Mərkəzi Bankın Covid-19 pandemiyası şəraitində maliyyə sektorunun dəstəklənməsi tədbirləri

Azərbaycan Respublikasının Prezidentinin Covid-19 pandemiyasının Azərbaycan iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması üzrə müvafiq sərancamının icrası çərçivəsində Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş "Tədbirlər Planı"na uyğun olaraq Azərbaycan Respublikasının Mərkəzi Bankının İdarə Heyəti 24.04.2020-ci il tarixli, 16 saylı qərarı ilə maliyyə sektoruna əlavə dəstəkləyici Tədbirlər paketi və "Koronavirus (COVID-19) pandemiyası şəraitində kredit təşkilatlarının fəaliyyətinin müvəqqəti tənzimlənməsi Qaydası" təsdiq edilmişdir

Tədbirlər paketində bank sektoru üzrə aşağıdakı əsas qərar və tövsiyələrin tətbiqi nəzərdə tutulmuşdur:

1. Pandemiya ilə təsirlənmiş fiziki şəxslərin və fərdi sahibkarların dövlət dəstək mexanizmləri ilə əhatə olunan kreditlərinin restrukturizasiyasının edilməsi banklara və bank olmayan kredit təşkilatlarına tövsiyə edilmişdir;

2. Pandemiya ilə əlaqədar restrukturizasiya edilmiş kreditlərin təsnifat kateqoriyasının pisləşdirməməsi üçün banklara və bank olmayan kredit təşkilatlarına icazə verilmiş, və ehtiyatlanma tələbləri müvəqqəti yumşaldılmışdır:

- Kredit faizləri subsidiyalaşdırılan, hüquqi şəxslərə və fərdi sahibkarlara verilmiş biznes kreditlərinin təsnifat kateqoriyasının borcalanın maliyyə vəziyyətindən asılı olmayaraq subsidiyanın ödənildiyi tarixdən pisləşdirilməməsi;

- Kredit faizləri subsidiyalaşdırılan və 01 mart 2020-ci il tarixinə qənaətbəxş təsnifat kateqoriyasında olan biznes kreditləri restrukturizasiya olunduqda, kreditin restrukturizasiyaya qədərki təsnifat kateqoriyasının pisləşdirilməməsi;

- 01 mart 2020-ci il tarixinə qənaətbəxş təsnifat kateqoriyasında olan və dövlət tərəfindən yaradılmış qurumların vəsaitləri hesabına verilən ipoteka kreditləri restrukturizasiya olunduqda, kreditin restrukturizasiyaya qədərki təsnifat kateqoriyasının pisləşdirilməməsi;

3. Pandemiya şəraitində hüquqi və fiziki şəxslərin kredit öhdəliklərinin gecikdirilməsi halında əlavə cərimə faizi, dəbbə pulu və digər ödənişlərin borcalanlardan tutulmaması, borcalanların kredit tarixçəsinin pisləşdirilməməsi banklara tövsiyə edilmişdir;

4. Bankların öz vəsaitləri hesabına verilmiş ipoteka kreditləri üzrə risk dərəcəsi azaldılmışdır (100%-dən 50%-dək);

5. Aqrar Kredit və Inkişaf Agentliyinin təminatı ilə verilmiş mikrokreditlərin risk dərəcəsi azaldımışdır (100%-dən 20%-dək);

6. Tibb ləvazimat və avadanlıqların istehsalına milli valyutada verilmiş biznes kreditlərin risk dərəcəsi azaldılmışdır (100%-dən 20%-dək);

7. Bankların və sığorta təşkilatlarının ötən illərin maliyyə nəticələri üzrə müvafiq dividendlərin verilməsi dayandırılmışdır.

Requlyativ yükün azaldılması istiqamətində:

8. Bankların məcmu kapitalının adekvatlıq əmsalı bir faiz bəndi endirilmişdir (sistem əhəmiyyətli banklar üçün 11%-dək, digər banklar üzrə 9%-dək);

9. Kontr-tsiklik kapital buferi 0% səviyyəsində müəyyən edilmişdir;

10. Bankların I dərəcəli və məcmu kapitalının adekvatlıq əmsallarının hesablanmasında əməliyyat və bazar riskinin nəzərə alınması təxirə salınmışdır;

11. İstehlak kreditləri üzrə borcun gəlirə nisbətinə (BGN əmsalı), müddət, faiz və valyuta göstəricilərinə əsaslanan əlavə risk dərəcələrinin tətbiqinə başlanması dayandırılmışdır;

12. Hərtərəfli yoxlamaların keçirilməsi dayandırılmışdır.

Həmçinin, pandemiya dövründə nağdsız ödəniş xidmətlərinin stimullaşdırılması və iqtisadi subyektlərin bu xidmətlər üzrə xərclərinin azaldılması məqsədilə Mərkəzi Bankın banklararası ödəniş sistemlərində banklardan tutulan xidmət haqlarının, habelə sahibkarların ödəniş kartları üzrə ekvayer tariflərinin 50%-ə qədər endirilmişdir.

Qiymətli kağızlar bazarı iştirakçılarına requlyativ güzəştlər verilmiş (yoxlamaların dayandırılması və s.), eyni zamanda, qiymətli kağızlar bazarında bağlanan əqdlər üzrə tariflərin, habelə Bakı Fond Birjasında listinqə daxil olması tariflərinin tətbiqi dayandırılmışdır.

Tədbirlər paketi qəbul olunduqdan sonra, pandemiyanın dalğaları nəzərə alınaraq dəstəkləyici tədbir və requlyativ tələblərin tətbiqi müddəti 5 dəfə uzadılmışdır. 2020-ci və 2021-ci illərdə pandemiya fonunda maliyyə sektorunun cari vəziyyəti və riskləri, eləcə də requlyativ güzəşt və məhdudiyyətlərin sektorun maliyyə dayanıqlığına təsiri üzrə aparılmış dövri qiymətləndirmə nəticələri, habelə beynəlxalq maliyyə təşkilatlarının tövsiyələri nəzərə alınmaqla Mərkəzi Bank requlyativ dəstək rejimini, o cümlədən requlyativ yumşalma rejimindən mərhələli çıxış strategiyasını davamlı olaraq dəqiqləşdirmiş və siyasət qərarları qəbul etmişdir. 2021-ci il ərzində təxirə salınmış requlyativ tələblərin bərpa edilmiş, requlyativ güzəştlərin tətbiqi başa çatdırılmışdır

Hal-hazırda maliyyə sektorunda pandemiya ilə əlaqədar hər hansı xüsusi requlyativ tələb və ya güzəşt tətbiq edilmir .

Eyni zamanda, bankların öz vəsaitləri hesabına verilmiş ipoteka kreditləri, habelə Aqrar Kredit və Inkişaf Agentliyinin təminatı ilə verilmiş mikrokreditlər üzrə azaldılmış risk dərəcələrinin tətbiqinə kapital adekvatlığının hesablanmasına dair requlyativ çərçivədə davam etdirilmişdir. Bank kapitalı və onun adekvatlığının hesablanması üzrə requlyativ tələblərə əsasən 31.12.2021-ci il tarixindən növbəti dövr üzrə hesablanmış kontr-tsiklik bufer 0% təşkil etmişdir

- ***Bank sektorunun risklər balansı yaxşılaşmışdır.***

Qrafik 25. Bank sektorunun risk xəritəsi



Mənbə: AMB

Qeyd: mərkəzə doğru risklər azalır

Makroiqtisadi risklər:
Kütləvi peyvəndlənmə fonunda il ərzində iqtisadi artım perspektivləri güclənsə də, mürəkkəb geostrateji proseslərin yaratdığı qeyri-müəyyənlik və qlobal inflyasiya əsas makroiqtisadi həssaslıqları təşkil etməkdədir. Bununla bərabər, manatın məzənnəsinin dayanıqlığı makroiqtisadi sabitliyin əsas lövbərini təşkil edir.

Kredit riskləri:
Aktivlərin keyfiyyətində müsbət dinamika və ümidsiz portfel üzrə həyata keçirilmiş silinmələr kredit portfelinin keyfiyyətinin yaxşılaşmasını şərtləndirmişdir. Lakin, portfelin keyfiyyəti, ehtiyatlanma səviyyəsi və restrukturizasiya edilmiş portfel diqqətdə saxlanılmalıdır.

Gəlirlilik mövqeyi:
Mürəkkəb makroiqtisadi şəraitdə fəaliyyət göstərən bank sektoru mənfəətliyini qoruyub saxlamışdır.

Bazar riskləri:
Bank sektoru üzrə açıq valyuta mövqeyinin azalması və 2016-cı ildən stabil olaraq davam edən de-dollarlaşma prosesi bazar risklərinin azalmasını şərtləndirmişdir.

Likvidlik riskləri:
Sektorun likvidliyi komfortlu zonadadır və prudensial tələblərə tam cavab verir. Likvidliyin sektor üzrə daha homogen paylanması üzrə səylər davam etdiriləcəkdir.

Bank sistemi üzrə kredit riski

İqtisadi artımın bərpası ilə 2021-ci ildə kredit riskləri kəmiyyət parametrləri üzrə əhəmiyyətli dərəcədə azalmışdır. 2021-ci ildə bank sistemi üzrə qeyri-işlək kredit portfeli 14.6% (128 mln. manat) azalaraq 0.7 mlrd. manat olmuşdur. Nəticədə ilin əvvəlindən qeyri-işlək kreditlər (QİK) əmsalı 1.7 f.b. azalaraq 4.5% təşkil etmişdir. Epidemioloji vəziyyətin yaxşılaşması ilə borcalanların ödəmə davranışında müşahidə olunan müsbət dinamika və bankların ümidsiz portfellərinin balansdan silinməsi QİK əmsalının azalmasını şərtləndirmişdir. Ötən il ərzində qeyri-işlək kredit portfeli əmsalı tarixi minimum səviyyəsində qərarlaşıb.

Qrafik 26. Bank sektoru üzrə QİK portfelinin dinamikası



Mənbə: AMB

Milli valyutada verilmiş kreditlər üzrə QİK əmsalı 4.4%, xarici valyuta üzrə isə 4.6% təşkil edir. Bütövlükdə, bençmark ölkələr ilə müqayisədə Azərbaycanda kredit riski göstəricisi kimi qeyri-işlək kreditlər əmsalının qənaətbəxş səviyyədə olduğu müşahidə edilir.

Qrafik 27. Dünya ölkələrində QİK əmsalı



Mənbə: BVF, müvafiq nəzarət orqanları

Biznes portfeli üzrə kredit risklərində azalma müşahidə edilmişdir. İl ərzində biznes kreditləri üzrə qeyri-işlək kreditlər (QİK) portfelinin həcmi 15.4% (91 mln. manat) azalaraq 499 mln. manat təşkil etmişdir. Nəticədə, ilin sonuna biznes kreditləri üzrə QİK əmsalı 1.8 f.b. azalaraq 5.1% olmuşdur. Qeyri-işlək kreditlər portfelinin iqtisadi sektorlar üzrə təhlili göstərir ki, ticarət və tikinti sahəsi üzrə qeyri-işlək portfel cəmi biznes portfeli üzrə QİK-in 53%-ni təşkil edir.

Qrafik 28. İqtisadiyyatın sahələri üzrə QİK portfelinin strukturu



Mənbə: AMB

İstehlak kreditləri üzrə QİK portfelinin həcmində dəyişiklik olmamışdır. İstehlak kreditləri üzrə qeyri-işlək kreditlər (QİK) portfelinin həcmi 183 mln. manat təşkil etmişdir. Dövr ərzində istehlak kreditləri üzrə QİK əmsalı isə 0.9 f.b. azalaraq 4.1% olmuşdur. İstehlak portfelinin borcalan strukturunun təhlili göstərir ki, istehlak portfelin 58%-i sabit gəlirləri olan dövlət sektorunda çalışanlara və təqaüdçülərə verilmişdir.

Qrafik 29. İstehlak portfeli üzrə borcalan strukturu, faizlə



Mənbə: AMB

İpoteka kreditləri üzrə qeyri-işlək kreditlərin həcmində azalma müşahidə edilmişdir. İl ərzində ipoteka portfeli üzrə QİK-in həcmi 36.4% (38 mln. manat) azalaraq 66 mln. manat təşkil etmişdir. Nəticədə ilin sonuna QİK əmsalı 2.4 f.b. azalaraq 2.8% olmuşdur. İpoteka kreditləşməsinin 61%-ni (1.5 mlrd. manat) təşkil edən AİKZF-in vəsaitləri hesabına verilmiş kreditlər üzrə QİK əmsalı cəmi 0.7% təşkil edir. AİKZF vasitəsilə verilmiş ipoteka kreditlərinin anderraytinq şərtləri bu növ kreditlər üzrə risklərin minimal səviyyədə qalmasını şərtləndirmişdir. Bankın daxili resursları hesabına verilmiş kreditlər üzrə isə kredit risklərinin daha yüksək olmasının səbəbi daxili ipoteka proqramları üzrə borcalanların iqtisadi tsiklə daha həssas olması və aylıq ödənişlərin daha yüksək olmasıdır. Bununla belə, post-pandemiya dövründə iqtisadi artımın bərpası ilə daxili ipoteka kreditləşməsinin keyfiyyətində müsbət dinamika müşahidə edilməkdədir.

Restrukturizasiya portfelinin dinamikasında azalma müşahidə olunur. 2021-ci il ərzində restrukturizasiya edilmiş portfel 0.1 mlrd. manat azalaraq 1.9 mlrd. manata çatmışdır. Restrukturizasiya edilmiş kreditlər cəmi kredit portfelinin 11.6%-i təşkil etmişdir. 2020-ci ildə restrukturizasiya olunmuş portfelin həcmində baş vermiş artım pandemiyanın biznes mühitinə mənfi təsirinin azaldılması istiqamətində restrukturizasiya prosesinin təşviq edilməsi fonunda olmuşdur. Restrukturizasiya olunmuş kreditlərin cəmi portfeldə payı son beş ilin ən aşağı səviyyəsindədir. Sektor üzrə bir dəfədən çox restrukturizasiya olunmuş kreditlərin cəmi restrukturizasiya portfelində payı 36% təşkil edir. Ümumilikdə, restrukturizasiya portfeli üzrə olan mümkün sistem risklərinin tənzimlənməsi Mərkəzi Bankın siyasət prioritetlərindəndir və bu istiqamətdə requlyativ çərçivənin təkmilləşdirilməsi planlaşdırılır.

Qrafik 30. Restrukturizasiya edilmiş portfelin dinamikası



Mənbə: AMB

Bank sisteminin vaxtı keçmiş kreditlər üzrə yarana biləcək itkiləri absorbsiya etmə potensialı yüksəkdir. Vaxtı keçmiş kreditlərin məqsədli ehtiyatlarla örtülmə əmsalı 119.4% təşkil edir. Qeyd edək ki, bu göstərici 2020-ci ilin sonunda 97.9% təşkil etmişdir. İstehlak kreditləri üzrə banklar tərəfindən yaradılmış məqsədli ehtiyatlar vaxtı keçmiş kreditləri 3 dəfə üstələyir ki, bunun da səbəbi mövcud prudensial qaydalara əsasən BGN əmsalı 45%-dən yüksək olan kreditlər üzrə 25% məqsədli ehtiyat yaradılmasıdır. Bankların yaratdıqları iri həcmdə məqsədli ehtiyatlar aktivlərin keyfiyyətinin pisləşəcəyi halında bufer rolunu oynamaqdadır.

Bank sistemi üzrə bazar riski

Bank sektorunun valyuta mövqeyi prudensial tələblər çərçivəsindədir. Bank sisteminin məcmu valyuta mövqeyi açıq qısa 290 mln. ABŞ dollar təşkil edir. Məzənnə riskləri üzrə prudensial normativ təşkil edən açıq valyuta mövqeyinin məcmu kapitala nisbəti göstəricisi isə mənfi 10.9% təşkil edir. Sektorun valyuta mövqeyi prudensial tələblərə cavab verməklə manatın məzənnəsi üzrə potensial korreksiyanın sektorun kapital mövqeyinə mənfi təsirini azaldır. AVM göstəricisinin normativ tələblər çərçivəsində təhlükəsiz zonada olması maliyyə sabitliyi üçün önəmlidir.

2015-ci ildən etibarən müşahidə edilən bank sektorunun de-dollarlaşma trendi davam etməkdədir. Hazırda bank sisteminin öhdəliklərinin 45%-i, aktivlərinin isə 39%-i xarici valyutadadır. Müqayisə üçün, 2015-ci ildə bu göstəricilər müvafiq olaraq 73% və 58% təşkil etmişdir. Son illər həyata keçirilən makroprudensial siyasət, milli valyutanın məzənnəsinin sabitliyinin qorunması de-dollarlaşma prosesini şərtləndirmişdir.

Qrafik 31. Depozit portfelinin dollarlaşması



Mənbə: AMB

Öhdəliklərin de-dollarlaşması trendinin aparıcı drayveri bank sisteminə əsas inam göstəricisi olan fiziki şəxslərin əmanətləri olmuşdur. 2015-ci ildən bəri xarici valyutada əmanətlər 53% (4.2 mlrd. manat) azalmış, milli valyutada əmanətlər isə 3 dəfəyə yaxın (3.8 mlrd. manat) artmışdır. Artımın əsas səbəbləri isə manata inam və milli valyutada depozit faizlərinin yüksək olmasıdır. Belə ki, Əmanətlərin Sığortalanması Fondu tərəfindən milli valyutada olan depozitlərin sığortalanması üzrə faiz dərəcəsinin yuxarı hədd 12%, xarici valyutada olan depozitlərdə isə bu hədd 2.5 % olaraq müəyyənləşdirilmişdir. Bütövlükdə, fiziki şəxslərin müddətli əmanətlərinin 45%-i, tələbli əmanətlərinin isə 37%-i xarici valyutadadır.

Qrafik 32. Fiziki şəxslərin depozit portfelinin valyuta bölgüsü, mlrd. manatla



Mənbə: AMB

Hüquqi şəxslərin depozitlərinin dollarlaşma səviyyəsi fiziki şəxslərin depozitləri ilə müqayisədə daha yüksəkdir. 2021-ci il ərzində hüquqi şəxslərin depozitlərində əhəmiyyətli artım müşahidə edilmişdir (+5.2 mlrd. manat, və ya 41%). 2015-ci il ildən etibarən hüquqi şəxslərin milli valyutada depozitləri 4 dəfə (6.6 mlrd. manat), xarici valyutada depozitləri isə 68% (3.7 mlrd. manat) artmışdır. Nəticədə, hüquqi şəxslərin depozitlərinin dollarlaşması 71%-dən 51%-ə enmişdir. Hüquqi şəxslərin xarici valyutada depozitləri əsasən tələbli depozitlərdə konsentrasiya olunmuşdur. Təhlillər göstərir ki, əsasən neft-qaz sektorunda fəaliyyət göstərən şirkətlər tərəfindən xarici tərəfdaşlar ilə aparılan əməliyyatlar xarici valyutada iri tələbli depozitlərin saxlanmasını şərtləndirir. Son illərdə hüquqi şəxslərin milli valyutada olan depozitlərini şərtləndirən amillərdən biri də "Nağdsız hesablaşmalar haqında" qanunun icrası olmuşdur.

Qrafik 33. Hüquqi şəxslərin depozit portfelinin valyuta bölgüsü, mlrd. manatla



Mənbə: AMB

Milli valyutada kreditləşmənin genişləndirilməsini təmin etmək üçün, öhdəliklərin de-dollarlaşma prosesinin sürətlənməsi zəruridir. Xarici valyuta depozitlərinin xüsusi çəkisi likvid aktivlərin valyuta strukturuna və kreditləşmə potensialına təsir edir. Likvid aktivlərin 51.1%-i xarici valyutadadır. Likvid aktivlərin valyuta kompozisiyası valyuta mövqeyinin normativlər çərçivəsində saxlanılması zərurəti ilə bağlıdır.

Kredit portfelində de-dollarlaşma prosesi real sektorun valyuta risklərini azaldır və maliyyə sabitliyini gücləndirir. Dövr ərzində manatın məzənnəsinin sabitliyi və manatla kreditləşmənin genişlənməsi nəticəsində kredit portfelində manatla kreditlərin payının artması trendi davam etmişdir. Nəticədə xarici valyutada olan kreditlərin ümumi portfeldə xüsusi çəkisi 2015-2021-ci illər ərzində 49.5%-dən 26.2%-dək azalmışdır. Hazırda, biznes kreditlərinin 41.4%-i, istehlak kreditlərinin 7.0%-i, ipoteka kreditlərinin isə 0.5%-i xarici valyutadadır. Xarici valyutada gəliri olmayan borcalanlara xarici valyutada istehlak kreditlərinin verilməsinin məhdudlaşdırılması istehlak portfelinin dollarlaşmasının tarixi minimuma enməsini şərtləndirmişdir. Habelə, Mərkəzi Bankın normativ xarakterli aktlarına əsasən daşınmaz əmlak krediti (ipoteka krediti) yalnız milli valyutada verilə bilər.

Qrafik 34. Kredit portfelnin xarici valyutada payı



Mənbə: AMB

Qrafik 35. Kredit portfelinin valyuta strukturu və dinamikası



Mənbə: AMB

Bankların faiz dərəcəsinə qarşı həssaslığı onların dayanıqlılığına təhdid yaratmır. Bazar risklərindən olan faiz dərəcəsi riski durasiya metodu ilə təhlil edilmişdir[5]. Sektorda aktiv və öhdəliklərin əksəriyyəti balans dəyəri ilə əks etdirildiyinə görə hesablamalar balans dəyəri üzərindən aparılmış və AMB-nin uçot faiz dərəcəsi ilə diskontlaşdırılmışdır. Aktiv və öhdəliklər arasında durasiya uyğunsuzluğunun əsas mənbəyi verilmiş kreditlərin və cəlb olunmuş depozitlərin orta çəkili durasiyaları arasında fərqin 4 dəfəyə yaxın olmasıdır.

Müsbət durasiya fərqi nəticəsində faiz dərəcələrinin artımı kapital adekvatlığı əmsalına azaldıcı təsir edir. Aparılmış simulyasiyalara əsasən, faiz dərəcəsinin 1% artması kapital adekvatlığı əmsalının cəmi 1.1 f.b. azalması ilə nəticələnir ki, bu da bank sisteminin maliyyə dayanıqlığına təhdid yaratmır.

[5] Durasiya təhlili Makaulay durasiya konsepsiyasına əsaslanaraq, aktiv və öhdəliklərin orta çəkili müddətinin ölçülməsində istifadə olunur. Xatırladaq ki, durasiya qəpi təhlili bankların bazar faiz dərəcəsinə olan həssaslığını $\partial(aktiv) - \frac{\partial(öhdəlik)\times öhdəlik}{aktiv}$ –düsturu vasitəsi ilə ölçür. Təhlil zamanı aktiv və öhdəliklər mərkəzi bankın faiz uçot dərəcəsi ilə diskontlaşdırılmışdır

Bank sistemi üzrə likvidlik riski

Sektorun likvidliyi komfort zonada olmaqla potensial xarici şoklara qarşı iri buferlərə malikdir. Bank sisteminin ani likvidlik əmsalı 61.6% təşkil edir ki, bu da minimum normativi (30%) iki dəfə üstələyir. Aktivlərin 36%-ni likvid vəsaitlər təşkil edir ki, bu da bençmark ölkələr ilə müqayisədə yüksək göstəricidir.

Qrafik 36. Ölkələr üzrə likvid aktivlərin aktivlərdə payı göstəricisi



Mənbə: BVF və müvafiq nəzarət orqanları

2021-ci il ərzində likvid aktivlər 31.6% və ya 3.3 mlrd. manat artaraq tarixi maksimuma (13.9 mlrd. manat) çatıb. Likvid aktivlərdə artım əsasən hüquqi şəxslərin tələbli depozitlərinin dinamik artımı hesabına baş vermişdir. Likvid aktivlərin 32%-i nostro hesablar, 34%-i Mərkəzi Bankda müxbir hesablar, 22%-i dövlət qiymətli kağızları, 13%-i isə nağd vəsaitlərdə cəmləşmişdir. Likvid aktivlərin cəmi aktivlərdə payının artan tendensiyası davam edir. Pandemiyadan öncəki dövrlə müqayisədə likvid aktivlərin bütün komponentləri üzrə artım müşahidə edilmişdir. Bank sistemi üzrə likvid aktivlər fiziki şəxslərin tələbli depozitlərini 3 dəfədən çox üstələyir və fiziki şəxlərin müddətli depozitlərinin əhəmiyyətli hissəsini əhatə edir.

Qrafik 37. Likvid aktivlərin strukturunun dinamikası, mlrd. manatla



Mənbə: AMB

Qrafik 38. Likvid aktiv komponentlərinin likvid aktivlərdə payının dinamikası



Mənbə: AMB

Sektorun xarici valyutada likvid vəsaitlərinin payının yüksək olması milli valyutada kreditləşmə imkanlarına azaldıcı təsir edir. Post-pandemiya dövründə iqtisadi artım proqnozları fonunda likvid vəsaitlərin əvvəlki dövrlə müqayisədə artması kreditləşmənin iqtisadi artıma dəstək kanalı kimi rolunu artırmışdır. Lakin, xarici valyutada likvid vəsaitlərin payının yüksək olması milli valyutada kreditləşməni məhdudlaşdırır. 2021-ci il ərzində likvid vəsaitlərin xarici valyutada çəkisi 50%-dən yuxarı (4.2 mlrd. ABŞ dolları) təşkil etmişdir ki, bu da əsasən iri şirkətlərin xarici valyutada əməliyyatları təmin etmək üçün vəsaitlərini banklarda xarici valyutada saxlaması ilə əlaqədar olmuşdur.

Qrafik 39. Likvid aktivlərin valyuta strukturunun dinamikası, mlrd. manatla



Mənbə: AMB

Likvidliyin banklar üzrə paylanması bərabər deyildir. Bank sistemi üzrə likvid aktivlərin paylanmasının təhlili göstərir ki, iri banklarda böyük şirkətlərin tələbli hesablarının cəmlənməsi həmin bankların yüksək miqdarda likvid aktiv saxlamasını zəruri edir.

Müddəti 1 ilədək olan aktivlərin ümumi aktivlərdə payı 51%, analoji göstərici öhdəliklər üçün isə 70% təşkil etmişdir. Öhdəliklərin müddət strukturu üzrə 58%-nin 90 gündən aşağı olması uzunmüddətli maliyyələşdirməyə məhdudlaşdırıcı təsir edir. Tələbli depozitlərin sistematik olaraq artan payı balans hesabatındakı müddət uyğunsuzluğunu artırmasına baxmayaraq, bank sektorundakı likvidlik göstəricilərinin komfort zonada olması və fiziki şəxslərin depozitlərinin sığortalanması bu uyğunsuzluğun likvidlik riskinə ciddi təsir göstərməməsi ilə nəticələnir.

Qrafik 40. Aktiv və öhdəliklərin müddət strukturu



Mənbə: AMB

Kreditin depozitə nisbəti üzrə dinamika bankların kreditləşmə fəaliyyətinin təmini üçün resurs bazasına malik olduğunu göstərir. 2021-ci ilin sonu üzrə kredit portfelinin depozit portfelinə nisbəti 62% təşkil edir ki, bu da son illərin ən aşağı göstəricisidir.

Qrafik 41. Kredit portfelinin depozit portfelinə nisbəti göstəricisinin dinamikası



Mənbə: AMB

Bank sisteminin mənfəətliliyi

Mürəkkəb xarici mühit və şərtlərə baxmayaraq, sektor mənfəətliliyini qorumuşdur. 2021-ci ildə bank sisteminin xalis mənfəəti 609 mln. manat təşkil etmişdir ki, bu da ötən il ilə müqayisədə 7.3% və ya 41 mln. manat çoxdur. Müsbət dinamika zərərlə işləyən bankların məcmu zərərinin azalması nəticəsində əldə edilmişdir. 2021-ci il ərzində 23 bank mənfəətlə işləmiş, 3 bank isə ili zərərlə bitirmişdir. Zərərlə işləyən bankların məcmu zərəri 46 mln manat azalaraq cəmi 3 mln manat olmuş, və bu bankların aktivlərinə görə sektorda payı cəmi 1.3% təşkil etmişdir. Mənfəətlə işləyən 23 bankın xalis mənfəəti isə 0.7% və ya 5 mln. manat azalaraq 612 mln. manat olmuşdur.

Qrafik 42. Bank sisteminin mənfəətliyi, mln. manatla



Mənbə: AMB

Fərdi banklar üzrə mənfəətlilik göstəricilərində də müsbət dinamika müşahidə edilir. Son 5 ildə zərərlə işləyən bankların sayının stabil olaraq azaldığı müşahidə edilir.

Qrafik 43. Mənfəət və zərərlə işləyən bankların sayı və dinamikası, mln. manatla



Mənbə: AMB

Banklarda gəlirliliyin formalaşmasında xalis mənfəət marjası və yüksək leverec əsas rol oynamışdır. İl ərzində bank sektoru ROE 0.2 f.b. artaraq 12.3% olmuşdur. Gəlirliliyin komponentlərinin təhlili üzrə beynəlxalq təcrübədə geniş istifadə olunan DuPont[6] təhlili son ildə ROE-nin artımını şərtləndirən əsas amil kimi bankların daha yüksək levereclə fəaliyyət göstərməsini müəyyən edir. İl ərzində aktivlərin sürətli artımı leverec əmsalını artırmışdır. Aktivlərin artımı həmçinin, aktivlərin dövriyyəsini də azaltmışdır. Eyni zamanda, bankların gəlirliliyini formalaşdıran əsas amil olan bankların mənfəət marjasında cüzi azalma müşahidə edilir.

Qrafik 44. Du-pont - ROE-in dekompozisiyası təhlili



Mənbə: AMB

Xalis mənfəətin müsbət dinamikasını xalis faiz gəlirinin əhəmiyyətli artımı şərtləndirmişdir. Belə ki, il ərzində xalis faiz gəliri 169 mln. manat və yaxud 12% artmışdır. Bu artıma baxmayaraq, məqsədli ehtiyatlar üzrə xərclərin 98 mln. manat və yaxud 138%, eyni zamanda valyuta əməliyyatından xalis gəlir istisna olmaqla qeyri-faiz xalis zərərin 31 mln. manat (4.4%) artması mənfəət marjasının 1.5 f.b azalmasını şərtləndirmişdir.

Qrafik 45. Sektor üzrə mənfəətin dekompozisiyası və dinamikası, mln. manatla



Mənbə: AMB

[6] DuPont təhlili, kapitalın gəlirliliyi əmsalını (ROE) müxtəlif komponentlərə bölərək gəlirliliyin formalaşma mənbələrini təhlil edir. Geniş yayılmış beynəlxalq təcrübədə ROE mənfəət marjası (xalis mənfəət / ümumi gəlirlər), aktivlərin dövriyyəsi (ümumi gəlirlər / aktivlər) və leverec əmsalının (aktivlər/balans kapitalı) hasilinə bərabərdir.

Məqsədli ehtiyatlar üzrə artım əsasən istehlak kreditləri üzrə baş vermişdir. Belə ki, mövcud makroprudensial çərçivəyə əsasən istehlak kreditləri üzrə BGN əmsalı 45%-dən yüksək olduqda bu kreditlər qeyri-standart kreditlər kimi təsnifləşdirilməli və onlara 25% məqsədli ehtiyat yaradılmalıdır.

Sektorun səmərəlilik göstəriciləri ötən il ilə müqayisədə artmışdır. Pandemiya periodunda sektorun səmərəlilik göstəricilərində neqativ dinamika müşahidə edilsə də 2021-ci ildə həmin göstəricilərdə müsbət trend müşahidə edilir. Belə ki, qeyri-faiz gəlirləri həm faiz, həm də qeyri-faiz xərclərinə nisbətdə artmışdır. Artım qeyri-faiz gəlirlərinin 73%-ni təşkil edən komissiya gəlirlərinin il ərzində 32% artması nəticəsində baş vermişdir. Eyni zamanda, komissiya xərclərinin 56% artması nəticəsində isə komissiya gəlirlərinin komissiya xərclərinə nisbəti 16% azalaraq 2.01 təşkil etmişdir. Komissiya xərcləri qeyri-faiz xərclərinin yalnız 22%-ni təşkil etdiyinə görə, qeyri-faiz xərclərində kəskin artım müşahidə edilməmişdir.

Qrafik 46. Bank sektorunun səmərəlilik göstəriciləri



Mənbə: AMB

Bankların faiz gəlirləri əsasən istehlak və biznes kreditləri hesabına formalaşmışdır. İl ərzində sektorun faiz gəlirləri 10 % (187 mln. manat), faiz xərcləri isə 9.3% (46 mln. manat) artaraq müvafiq olaraq 2.1 və 0.5 mlrd. manat təşkil etmişdir. Faiz gəlirlərinin əsas hissəsini ötən ildəki kimi istehlak kreditləri (771 mln. manat) və biznes kredit portfeli (763 mln. manat) formalaşdırır. 2021-ci ildə istehlak kreditləri cəmi kredit portfelinin 27%-ni təşkil etsə də faiz gəlirlərinin 37%-ni formaladırmışdır. Bank sistemi üzrə biznes portfeli isə cəmi kreditlərin 58%-ni təşkil etdiyi halda, faiz gəlirlərinin isə 36%-ni formalaşdırır.

Qrafik 47. Faiz gəlirlərinin strukturu



Mənbə: AMB

Bankların faiz xərclərinin əsas hissəsini fiziki şəxslərin depozitləri üzrə xərclər təşkil edir. Bankların dayanıqlı maliyyələşmə mənbəyində əsas rolu təşkil edən fiziki şəxslərin depozitləri faiz xərclərinin də əhəmiyyətli hissəsini (53% və ya 288 mln. manat) formalaşdırır. Faiz xərclərinin digər əsas istiqamətləri hüquqi şəxslərin depozitləri və maliyyə institutlarının kreditləridir.

Qrafik 48. Faiz xərclərinin strukturu



Mənbə: AMB

Bank sisteminin kapital mövqeyi

Sektorun kapital mövqeyi prudensial tələbləri üstələməklə potensial itkiləri absorbsiya etmək imkanındadır. 2021-ci ilin sonuna sektorun I dərəcəli kapitalı 3.8 mlrd manat, məcmu kapitalı isə 4.5 mlrd manat təşkil edir. Sektor üzrə KAƏ (kapital adekvatlığı əmsalı) 19.1% təşkil etmişdir ki, bu da tələb olunan minimum prudensial tələbləri 2 dəfəyə yaxın üstələyir. 2020-ci illə müqayisədə sektor üzrə məcmu kapital 8.6% və ya 360 mln. manat artmışdır. Artımın əsas drayveri bankların bölüşdürülməmiş mənfəətidir (207 mln. manat). Eyni zamanda il ərzində 23 mln. manat yeni kapital inyeksiyası həyata keçirilmişdir.

Ötən illə müqayisədə məcmu kapitalın həcminin artımına baxmayaraq, kapital adekvatlığı əmsalı göstəricisi 6 f.b. azalaraq 19.1% olmuşdur. Bunun əsas səbəbi, yeni requlyativ çərçivə əsasında istehlak kreditləri üzrə aktivlərin risk dərəcələrinin artırılması, həmçinin bazar və əməliyyat riskləri üzrə kapital tələbinin tətbiq olunması ilə əlaqədardır.

Bütövlükdə, 2017-ci ildən etibarən bank sisteminin kapitallaşmasında stabil artım müşahidə edilir. Kapital artımının mənbəyi həm daxili mənfəət generasiyası, həm də kapital inyeksiyası təşkil edir. Bank sisteminin restrukturizsiyası və sağlamlaşdırılması çərçivəsində 2017-ci ildən etibarən 1.8 mlrd. manat kapital inyeksiyası həyata keçirilmişdir. Nəticədə, son 5 ildə məcmu kapitalın həcmi 2 dəfədən çox artmışdır. Requlyativ kapitalın əhəmiyyətli artımı bank sisteminin xarici şoklara daha dayanıqlı olmağını şətləndirmişdir.

Qrafik 49. Kapital adekvatlığının dinamikası, mln. manatla



Mənbə: AMB

Kapital adekvatlığı səviyyəsi ilə bağlı fərdi bankların monitorinqi nəticələri də bank sektorunun restrukturizasiyası həmçinin bankların mənfəət generasiyası qabiliyyətinin bərpası nəticəsində 2017-ci ildən etibarən müsbət dinamikanın mövcud olduğunu göstərir.

Cədvəl 2. Kapital adekvatlığı əmsalına görə bankların qruplaşdırılması

Kapital adekvatlığı əmsalı[7]	2017	2018	2019	2020	2021
<12%	5	4	1	0	1
12-16%	5	7	8	3	6
16-20%	4	2	2	5	4
>20%	16	17	19	18	15
Cəmi	**30**	**30**	**30**	**26**	**26**

Mənbə: AMB

Kapitalın strukturunda I dərəcəli kapitalın payı yüksəkdir. Bank sisteminin sağlamlaşdırılması çərçivəsində həyata keçirilən kapital inyeksiyaları, həmçinin ötən illər ərzində bankların əldə etdikləri bölüşdürülməmiş mənfəət nəticəsində yüksək keyfiyyətli hesab olunan I dərəcəli kapitalın həcmi stabil olaraq artmışdır. Hazırda, məcmu kapitalın 84%-ni I dərəcəli kapital təşkil edir.

Qrafik 50. Kapitalın strukturunun dinamikası, mln. manatla



Mənbə: AMB

[7] "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"nın 13.1 və 13.2-ci maddələrinə əsasən kapital adekvatlığı əmsalınln minimum normativ həddi sistem əhəmiyyətli banklar üzrə 12%, digər banklar üzrə isə 10% təşkil edir.

2021-ci il ərzində RÜÖA artmışdır. Məcmu kapitalın 8.6% (360 mln. manat) artması fonunda risk üzrə ölçülmüş aktivlərin həcmi 43% (7.2 mlrd. manat) artmışdır. Nəticədə risk üzrə ölçülmüş aktivlərin cəmi aktivlərə nisbəti göstəricisi il ərzində 10 f.b. artaraq 62%-ə yüksəlmişdir. İlin sonuna olan məlumata əsasən RÜÖA 23.8 mlrd. manat olmuşdur ki, bunun 21.9 mlrd manatı risk dərəcəsi üzrə ölçülmüş aktivlərin, 0.6 mlrd. manatı bazar risklərinin, 1.2 mlrd. manatı isə əməliyyat risklərinin payına düşür. Risk üzrə ölçülmüş aktivlərin artımının əsas drayveri yeni requlyativ çərçivənin tətbiqidir.

Qrafik 51. Kapital və RÜÖA-nın dinamikası



Mənbə: BVF

KAƏ Bazel II standartlarına müvafiq olaraq bazar və əməliyyat risklərinin kapital ilə əhatə olunmasına dair formalaşdırılmış requlyativ çərçivə əsasında hesablanmağa başlanmışdır. Bank sisteminin dayanıqlığının artırılması, bankların risk idarə edilməsi potensialının gücləndirilmləsi və requlyativ çərçivənin qabaqcıl tənzimləmə standartları ilə harmonizasiyası istiqamətində 30 noyabr 2019-cu il tarixindən qüvvəyə minmiş "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"na dəyişikliklərə əsasən 1

Qrafik 52. Kapital adekvatlığının beynəlxalq müqayisəsi



Mənbə: BVF

sentyabr 2020-ci il tarixindən kapital adekvatlığı əmsalı hesablanarkən kredit riskləri ilə yanaşı Basel II standartlarına əsasən bazar və əməliyyat risklərinin də hesablanması nəzərdə tutulurdu. Lakin Covid-19 pandemiyası ilə əlaqədar banklara verilmiş requlyativ tətil çərçivəsində bu tələb 2021-ci ilin iyulun 1-dək təxirə salınmışdır. Artıq 2021-ci ilin yekunları üzrə KAƏ yeni formalaşdırılmış prudensial çərçivəyə əsasən hesablanmışdır ki, bu da KAƏ 6 f. b. azalaraq 19.1%-ə enməsini şərtləndirən faktorlardan olmuşdur.

Bazel III standartlarına əsasən kontr-tsiklik kapital buferinin nəzərə alınması. "Bank kapitalının və onun adekvatlığının hesablanması Qaydaları"na edilən dəyişikliklərə əsasən prudensial çərçivənin Bazel III tələblərinə uyğunlaşdırılması ilə bağlı kapital adekvatlığı əmsallarının hesablanması zamanı kontr-tsiklik kapital buferinin də nəzərə alınması ehtiva edilir. Kontr-tsiklik kapital buferi makroprudensial alət olaraq bank sektorunda izafi kreditləşmənin nəticəsi olan sistem risklərinin qarşısının alınması və tsiklik proseslərə həssaslığının azaldılmasını nəzərdə tutur. Kontr-tsiklik kapital buferinin hesablanması üçün əsas göstərici kimi kredit qəpi qəbul edilir. Kredit qəpi 2-10% aralığında dəyişdikdə kontr-tsiklik kapital buferi müvafiq olaraq 0-2.5% aralığında müəyyən edilir. Hazırda iqtisadiyyatın sektorları üzrə tətbiq olunan məhdudiyyətlərin tədricən aradan qaldırılması nəzərə alınaraq, kontr-tsiklik bufer üzrə tələbin 0% səviyyəsində saxlanılması məqsədəuyğun hesab edilir.

Qrafik 53. Kredit portfelinin ÜDM-ə nisbəti, HP Trendi ilə



Mənbə: AMB

Bank sistemində dayanıqlığın qiymətləndirilməsi

Bank sektorunun kənar şoklara qarşı dayanıqlığı stress test vasitəsilə qiymətləndirilmişdir. Bank sisteminin dayanıqlığının qiymətləndirilməsi, sistem risklərinin identifikasiyası və ölçülməsi üzrə analitik diaqnostik çərçivənin formalaşdırılmasında stress testlər mühüm təhlil aləti kimi çıxış edir. Bu alət, müxtəlif əlverişsiz makro-maliyyə ssenarilərində bankların kapital dayanıqlığını qiymətləndirilməsində və müvafiq mitiqasiya və siyasət tədbirlərinin müəyyən olunmasında istifadə olunur.

Mərkəzi Bankın daxili stress test modelinin inkişafı məqsədilə BVF-dan texniki dəstək proqramı cəlb olunmuşdur. Texniki dəstək proqramı çərçivəsində kredit riskinin təhlili üzrə ekonometrik peyk modellərin ("satellite models") təkmilləşdirilməsi, məzənnə riskinin modelə inteqrasiya olunması, mənfəət və zərər hesabatının müxtəlif komponentlərinin proyeksiyası üçün ekonometrik peyk modellərin qurulmasına nail olunmuşdur. Beləliklə, milli və xarici valyutada istehlak, ipoteka və biznes kreditlərini əhatə edən kredit riski göstəricilərinin (qeyri-işlək kreditlər), kredit faiz dərəcələri, maliyyələşmə xərcləri, haqq və komissiya üzrə gəlir və xərclər və risk üzrə ölçülmüş aktivlərin müxtəlif makro-maliyyə ssenarilərində proyeksiya edilmişdir. Nəticədə, müxtəlif ssenarilərdə bankların maliyyə dayanıqlığı qiymətləndirilmişdir.

Stress test şəraitində makro-iqtisadi amillərin bankların dayanıqlığına təsirini müəyyənləşdirmək üçün baza ssenari və baş vermə ehtimalı mümkün olan ən sərt ssenarilər ("extreme but plausible") yanaşması nəzərə alınaraq bədbin ssenari formalaşdırılmışdır. Baza makro-iqtisadi ssenari BVF-nın 2021-ci ilin oktyabr ayı üzrə Dünya İqtisadiyyat İcmalına (WEO) daxil edilmiş proqnozlarına əsaslanır. Bədbin ssenaridə isə ölkədə 2015-2016-cı illərdə baş vermiş böhranın kalibrasiyası əsas götürülərək ssenarilər müəyyən verilmişdir.

Qrafik 54. Stress test nəticəsində bank sisteminin kapital adekvatlığı



Mənbə: AMB

Stress test nəticəsində bank sektoru kapital eroziyasına məruz qalsada, sektorun kapital adekvatlığı bütövlükdə minimum normativləri üstələyir. Belə ki, baza ssenari üzrə 2022-ci ildə bank sektorunun kapital adekvatlığı 19.2% təşkil edir və növbəti illərdə stabil artım kapital adekvatlığı göstəricisinin 2024-cü ildə 22.8%-ə çatmasını şərtləndirir. Bədbin ssenaridə isə bank sektorunun kapital adekvatlığı 2022-ci ildə 3.8 f.b. azalaraq 15.3% təşkil edir. Bununla belə, növbəti illərdə gəlirliyin bərpası fonunda isə sektorun adekvatlığı 2024-cü ildə 18.3%-ə çatır. Stress test nəticələri bank sektorunun mövcud kapital buferinin potensial itkiləri absorbsiya etmək potensialında olduğunu göstərir.

Stress test nəticələrinə əsasən kredit riski və xarici valyuta riski əsas risk faktorlarını təşkil etdiyi halda, faiz dərəcəsi riskinin təsirinin nisbətən aşağı olması müşahidə edilmişdir.

Qrafik 55. Bədbin ssenaridə kapital adekvatlığı göstəricisinə təsir kanalları



Mənbə: AMB

Haşiyə 2. Maliyyə institutları arası təsiretmə və həssaslıq riskləri şəbəkə modelindən (Espinosa-Vega and Sole, 2010)* istifadə edilməklə qiymətləndirilmişdir

Şəbəkə modeli (Network model) hər hansı bir maliyyə institutunun hipotetik defolt etməsi halında, bunun ümumilikdə maliyyə sisteminə və fərdi qaydada digər institulara təsirini qiymətləndirir. Təhlilin nəticəsində təsiretmə və həssaslıq indeksləri çıxarılır. Təsiretmə indeksi - sektorda bir maliyyə institutunda baş vermiş defolt şəraitində sektorun faiz ifadəsində itirəcəyi kapital payını müəyyən edir. Həssaslıq indeksi - isə sistem üzrə hər bir maliyə institunun hipotetik defoltu şəraitində bir maliyyə institunun itirəcəyi ortalama kapital payını müəyyən edir.

Təhlil banklar və sığorta şirkətləri üzrə 2021-ci il göstəriciləri əsasında aparılmışdır. ***Ssenari: Kredit şoku – Maliyyə institutunun iflası halında 100 % itki ;Likvidlik və maliyyələşmə şoku – Tələblərin 100 % çəkilməsi halında aktivlərin 35% diskontla satışı.***

Təhlil göstərir ki, ümumilikdə banklararası bazarın mövcud vəziyyəti bankların qarşılıqlı təsir və həssaslılq riskini azaldır. Təsiretmə riski əsasən aktivlərinin həcminə görə iri banklarda formalaşmışdır. Bu da sığorta sektorunun depozitləri və qarşılıqlı hedcinq alətlərindən istifadə hesabınadır.

Bütövlükdə, bank vəsaitlərinə investisiyanın sığorta sektorunun əsas investisiya aləti olması sığorta sektorunun bankların risk profilinə həssaslığını yüksəldir. Sığorta sektorunun aktivlərinin 31%-i banklarda olan depozitlər təşkil edir. Digər risk isə həssaslıq indeksi yuxarı olan sığorta şirkətlərinin aidiyyəti banklardakı vəsaitləridir. Bununla belə, il ərzində aidiyyəti banklarda vəsaitlərin azalması tendensiyası müşahidə edilir.

Şəbəkə modeli əsasında bank və sığorta şirkətlərinin qarşılıqlı təsiri



** Juan Sole & Marco A Espinosa-Vega, 2010. "Cross-Border Financial Surveillance; A Network Perspective," IMF Working Papers 2010/105, International Monetary Fund.*

Bank olmayan kredit təşkilatları

Bank olmayan kredit təşkilatlarının (BOKT) maliyyə vasitəçiliyində rolu kiçik olaraq qalmaqdadır. Bütövlükdə bank olmayan kredit təşkilatlarının maliyyə sistemində aktivlərinə görə bazar payı 1.0%-dən kiçikdir[8]. Fəaliyyət göstərən 99 bank olmayan kredit təşkilatından 14-ü xarici kapitallıdır ki, onların da 11-də xarici kapitalın payı 50%-100% arası təşkil edir. 2021-ci ilin sonuna BOKT-lərin sayı 56, Kİ-nın sayı isə 43 olmuşdur. İl ərzində BOKT işçilərinin sayı 327 nəfər artaraq 2 563 nəfər, filial sayı isə 19 ədəd artaraq 266 ədədə çatmışdır. Hesabat dövrü ərzində 9 yeni BOKT-ə lisenziya verilmiş, 1 BOKT-in lisenziyası isə ləğv edilmişdir.

BOKT sektorunda pandemiyanın səbəb olduğu iqtisadi daralma, ötən il artım ilə əvəzlənmişdir. Ölkədə fəaliyyət göstərən BOKT-lərin cəmi aktivləri il ərzində 23.1% (73 mln. manat) artaraq 389 mln. manat təşkil etmişdir. Artımın əsas drayveri xalis kredit portfeli olmuşdur. İl ərzində xalis kredit portfeli 30.3% (68 mln. manat) artmışdır ki, artım əsasən istehlak kreditləri hesabına formalaşmışdır (59 mln. manat).

Qrafik 56. Bank olmayan kredit təşkilatlarının aktivlərinin dinamikası, mln. manatla



Mənbə: AMB

2021-ci ildə istehlak kreditləri BOKT-lərin portfelində əsas yeri tutmaqda davam edir. 2021-ci ilin sonuna BOKT-lərin kredit portfelinin 61%-i (201.8 mln. manat) istehlak kreditləri, 39%-i (131.3 mln. manat) isə biznes kreditləri təşkil edir. Biznes portfelinin 33.1%-i (43.4 mln. manat) kənd təsərrüfatı, 25.1%-i (33.0 mln. manat) qeyri-istehsal və xidmət sahələrinin, 20.4%-i (26.8 mln. manat) isə ticarət sahəsinə verilmiş kreditlər təşkil edir.

[8] BOKT-lərin təhlili "Aqrarkredit" QSC nəzərə alınmadan aparılmışdır.

Qrafik 57. BOKT-lərin kredit portfelinin strukturu, mln. manatla



Mənbə: AMB

BOKT sektorunda təmərküzləşmə əlamətləri müşahidə olunur.Sektorda fəaliyyət göstərən BOKT-lardan aktivlərinin məbləği 10 mln. manatdan yüksək olan cəmi 12 kredit təşkilatı mövcuddur ki, bu təşkilatlar BOKT sisteminin 71.4%-i (277.6 mln. manat) təşkil edir. Həmçinin aktivlərinin məbləği 2 mln. manatdan aşağı olan 26 BOKT mövcuddur ki, bu təşkilatlar sektorun yalnız 6.6%-i təşkil edir. Təmərküzləşmənin əsas səbəbi BOKT sektorunun iştirakçılarının sayının yüksək olmasına baxmayaraq, kiçik BOKT-lərin yeni kredit verilişini səngitməsi və passiv fəaliyyətidir.

Sektorun öhdəlikləri artmışdır. Sektorun öhdəlikləri il ərzində 28% (49 mln. manat) artaraq 224 mln. manat təşkil etmişdir ki, artmanın əsas səbəbi qiymətli kağızlardır. Belə ki, qiymətli kağızların öhdəliklərdə payı ötən illə müqayisədə 8 f.b. artaraq 20.5%-ə çatmışdır. Qiymətli kağızlarda artım məhdud sayda BOKT-də cəmləşmişdir. Cari il ərzində sektorun xarici borcu 70% (6 mln. manat) artaraq 14 mln. manat olmuşdur.

Qrafik 58. BOKT-lərin öhdəliklərinin dinamikası, mln. manatla



Mənbə: AMB

BOKT sektorunun öhdəliklərinin 34.4%-ni banklar və digər maliyyə institutlarından cəlb edilmiş vəsaitlər təşkil edir. Öhdəliklərin əsas komponentlərindən biri də mərkəzi idarəetmə orqanlarının vəsaitləridir. Bunun bir səbəbi fiziki şəxslərin problemli kreditlərin həlli ilə bağlı Prezident Fərmanının icrası ilə əlaqədar restrukturizasiya olunmuş kreditlər qarşılığında BOKT sektorunun mərkəzi bank qarşısında öhdəlikləridir.

Post-pandemiya dövründə kredit portfelinin keyfiyyətində yaxşılaşma müşahidə edilmişdir. Belə ki, 2021-ci ildə sektorun qeyri-işlək kredit portfeli 15.0% azalaraq 70.3 mln. manat təşkil etmişdir. Qeyri-işlək kreditlər əsasən biznes sektorunda cəmlənmişdir. Belə ki, istehlak kreditləri üzrə QİK-in həcmi 28.5 mln. manat, biznes portfeli üzrə isə 41.8 mln. manat təşkil edir.

Sektor mənfəət generasiya etməyə davam edir. 2021-ci ildə sektor 10.1 mln. manat mənfəət generasiya edib ki, analoji göstərici ötən ilin sonunda 9.9 mln. manat təşkil edirdi. İlin sonuna sektorun ROA və ROE göstəriciləri müvafiq olaraq 2.6% və 6.1% təşkil etmişdir.

Qrafik 59. BOKT-lərin mənfəət göstəriciləri



Mənbə: AMB

Sığorta sektoru

2021-ci ilin sonuna olan məlumatlara əsasən Azərbaycan sığorta bazarında 20 sığorta və bir təkrarsığorta şirkəti fəaliyyət göstərir. Sığorta şirkətlərindən 5-i həyat, 15-i isə qeyri-həyat sığorta şirkətidir. Sığorta sektorunun fəaliyyəti həmçinin 28 sığorta brokeri və 730 sığorta agenti vasitəsilə təmin edilmişdir.

Sığorta haqlarında artım dinamikası müşahidə edilmişdir. 2021-ci ildə toplanmış sığorta haqları ötən ilə münasibətdə 16% (115 mln. manat) artaraq 844 mln. manata çatmışdır. Artım əsasən könüllü sığorta növləri üzrə olmuşdur. Belə ki, dövr ərzində könüllü sığorta növləri üzrə artım 17% (84 mln. manat), icbari sığorta növləri üzrə artım isə 14% (31 mln. manat) olmuşdur. Könüllü sığorta növləri üzrə artımın əsas drayveri kimi isə həyatın yaşam sığortası çıxış etmişdir. Belə ki, 84 mln. manat artımın 68 mln. manat hissəsi yaşam sığortasının payına düşür. Ümumilikdə son 5 il ərzində sığorta haqları 74% (358 mln. manat) artmışdır. Son 5 il ərzində həyat sığorta sinifləri üzrə yığılmış sığorta haqqı 161% (236 mln. manat), qeyri-həyat sığorta sinifləri üzrə isə 36% (122 mln. manat) artmışdır.

Qrafik 60. Sığorta haqlarının dinamikası, mln. manatla



Mənbə: AMB

İl ərzində sığorta ödənişlərində azalma müşahidə edilmişdir. Belə ki, 2020-ci il ilə müqayisədə ödənişlər 1.4% (6 mln. manat) azalaraq 459 mln. manat olmuşdur. Azalma həyat sığortası sinifləri üzrə ödənişlər hesabına olmuşdur. Belə ki, il ərzində həyat sığortası sinifləri üzrə ödənişlər 15% (43 mln. manat) azalaraq 240 mln. manat, qeyri-həyat sığortası sinifləri üzrə ödənişlər isə 20% (37 mln. manat) artaraq 219 mln. manat təşkil etmişdir.

Qrafik 61. Sığorta ödənişlərinin dinamikası, mln. manatla



Mənbə: AMB

- ***Sığorta sinifləri üzrə yığılmış haqların strukturu:***

Həyat sığortası sinifləri üzrə haqların strukturuna nəzər yetirdikdə, həyatın yaşam sığortası sinfinin aparıcı sinif olduğu görünür (273 mln. manat olmaqla, cəmi h/s haqlarının 71%-i). İl ərzində əsas artım məhz bu sığorta növündə müşahidə edilmişdir (33% və ya 68 mln. manat artım).

Qrafik 62. Həyat sığortası haqlarının siniflər üzrə strukturu, mln. manatla



Mənbə: AMB

Qeyri-həyat sığortası sinifləri üzrə haqların strukturuna nəzər yetirdikdə isə, könüllü tibbi sığorta (103 mln. manat olmaqla, cəmi q/h haqların 22%-i), avtonəqliyyat vasitələri sahiblərinin mülki məsuliyyətinin icbari sığortası (100 mln. manat olmaqla, cəmi q/h haqların 22%-i) və daşınmaz əmlakın icbari sığortası siniflərinin (63 mln. manat olmaqla, cəmi q/h haqların 14%-i) əsas paya sahib olduqları görünür. Qeyri-həyat sığortası sinifləri üzrə əsas artım daşınmaz əmlakın icbari sığortası (+35.5%, +16.4 mln. manat), avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası (+6.7%, +6.3 mln. manat), kənd təsərrüfatı bitkiləri məhsullarının (+6.2 mln. manat) və kənd təsərrüfatı heyvanlarının sığortası (+126%, +3.6 mln. manat) üzrə olmuşdur.

** İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta*

Qrafik 63. Qeyri-həyat sığortası haqlarının siniflər üzrə strukturu, mln. manatla



Mənbə: AMB

- ***Sığorta sinifləri üzrə ödənişlərin strukturu***

Həyat sığortası sinifləri üzrə ödənişlərin də strukturunda həyatın yaşam sığortası əsas sinif kimi çıxış edir. Həyatın yaşam sığortası üzrə ödənişlərdə ötən illə müqayisədə 17% azalma müşahidə edilsə də, həyat sığortası üzrə cəmi ödənişlərin (236 mln. manat) 98%-ni (232 mln. manat) təşkil etmişdir.

Qrafik 64. Həyat sığortası ödənişlərinin siniflər üzrə strukturu, mln. manatla



Mənbə: AMB

Qeyri-həyat sığortası sinifləri üzrə ödənişlərdə əsas pay tibbi sığorta (79 mln. manat, q/h ödənişlərin 36%-i), avtonəqliyyat sahiblərinin mülki məsuliyyətinin icbari sığortası (74 mln. manat, q/h ödənişlərin 34%-i) və digər icbari (41 mln. manat, q/h ödənişlərin 19%-i) sığorta növlərinə aiddir. İl ərzində ödənişlərdə artım da məhz bu sığorta sinifləri üzrə baş vermişdir. Belə ki, avtonəqliyyat sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə ödənişlər 31%, daşınmaz əmlakın icbari sığortası istisna olmaqla digər icbari sığorta növləri üzrə ödənişlərdə isə 68% artım müşahidə edilmişdir. Könüllü sığorta növləri üzrə artım da əsasən tibbi sığorta (16%) və avtonəqliyyat vasitələrinin sığortasında (22%) müşahidə edilmişdir.

* *AVSMMİS - Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası*

Qrafik 65. Qeyri-həyat sığortası ödənişlərinin siniflər üzrə strukturu, mln. manatla



Mənbə: AMB

Sığorta sektorunda siniflər üzrə təmərküzləşmə mövcuddur. Sığorta haqlarının yarısından çoxu 3 sığorta sinfi üzrə toplanır. Belə ki, 2021-ci ildə əsas sığorta siniflərinin ümumi haqlarda payı 56% təşkil etmişdir.

Qrafik 66. Sığorta siniflərinin haqlar üzrə strukturu



Mənbə: AMB

Sığorta haqlarının ÜDM-də payında azalma müşahidə edilsə də, adambaşına düşən sığorta haqqı artmışdır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə sığorta haqlarının ÜDM-də payı 0.1 f.b. azalaraq 0.9% olmuşdur. Əmsalın azalması post-pandemiya dövründə ÜDM-in artımının sığorta haqlarında olan artımla müqayisədə daha sürətli olmasıdır. Ümumilikdə, penetrasiya göstəricisi bençmark ölkələrlə müqayisədə aşağı səviyyədədir. Sığorta sektoru üzrə penetrasiyanın dərinləşdirilməsi Mərkəzi Bankın strateji fəaliyyətinin əsas istiqamətlərindəndir. Belə ki, sığorta sektorunun inkişaf strategiyasına əsasən

rəqəmsal xidmətlərin artırılması və rəqəmsal həllərin tətbiqi sektorun rəqəmsallaşmasını artırmaqla penetrasiyanın artmasını dəstəkləyəcəkdir. Eyni zamanda, sığorta sahəsində genişmiqyaslı maarifləndirmə tədbirlərinin icrası, sığorta sektoruna güvənin artırılması məqsədilə effektiv bazar infrastrukturunun təkmilləşdirilməsi və müasir korporativ idarəetmənin tətbiq edilməsi növbəti illərdə penetrasiyanın artmasını şərtləndirəcəkdir.

Qrafik 67. Sığorta sektorunun penetrasiya səviyyəsi



Mənbə: AMB

Qrafik 68. Sığorta sektoru üzrə penetrasiyanın digər ölkələrlə müqayisəsi



Mənbə: OECD və müvafiq nəzarət orqanları

2020-ci il ilə müqayisədə sektorun aktivləri 1.2% (16.0 mln. manat) azalaraq 1 325 mln. manat təşkil edib[9]. İl ərzində qeyri-həyat sektorunun aktivləri -1.1% (7 mln. manat) azalaraq 683 mln. manat, həyat sektorunun aktivləri isə 3.9% (20 mln. manat) artaraq 543 mln. manat olmuşdur.

Qrafik 69. Sığorta sektorunun aktivləri, mln. manatla



Mənbə: AMB

Sığorta sektorunun aktivləri əsasən dövlət qiymətli kağızlarına və banklardakı vəsaitlərə investisiya edilmişdir. Bütövlükdə sığorta sektoru üzrə aktivlərin 35%-i (457 mln. manat) dövlət qiymətli kağızlarında, 31%-i (409 mln. manat) banklardakı vəsaitlərdə, 6%-i (75 mln. manat) isə qeyri-dövlət qiymətli kağızlarında cəmləşməklə sığorta sektorunun investisiya portfelini formalaşdırır. Ötən il ilə müqayisədə daha riskli hesab edilən bank vəsaitləri və QDQK-ların azalması (bu aktivlər üzrə məcmu kapital və ehtiyatların hesablanmasında daha sərt likvidlik və diversifikasıya əmsalları tətbiq edilir), DQK-ların isə artımı müşahidə edilmişdir.

[9] Təhlil lisenziyası ləğv olan sığorta şirkətləri nəzədə alınmadan, fəaliyyətdə olan 20 sığortaçı və 1 müstəsna təkrarsığortaçı üzrə aparılmışdır.

Qrafik 70. Aktivlərin komponentlərinin dinamikası, mln. manatla



Mənbə: AMB

Sığortaçıların yerli banklarda depozitləri azalsa da, depozitlər ikinci əsas investisiya aləti kimi çıxış etməkdədir. Ötən ilin sonu ilə müqayisədə sığorta sektorunun yerli banklarda depozitləri 7% (28 mln. manat) azalaraq 371 mln. manata enmişdir.

Qrafik 71. Sığorta şirkətlərinin yerli banklarda vəsaitləri, mln. manatla



Mənbə: AMB

Cari ildə pandemiya və karantin qaydalarının yumşaldılması nəticəsində ötən dövr ilə müqayisədə ən yüksək zərərli 3 sinif üzrə sığorta ödənişlərinin artımı müşahidə edilmişdir. Qeyd edək ki, bu sığorta siniflərindən ikisi könüllü olduğundan tarif siyasəti sığortaçılar tərəfindən sərbəst aparılır. Habelə, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası sinfi üzrə sığorta tariflərinin dövlət tərəfindən tənzimlənməsi (son dəyişiklik 2011-ci ildə həyata keçirilmişdir) və avtomobil bazasının genişlənməsi fonunda zərərlilik 79%-ə çatmışdır.

Qrafik 72. Sığorta sektorunun yüksək zərərli 3 sığorta sinifi



Mənbə: AMB

Sektorun mənfəətliliyi əsasən həyat sığorta şirkətləri hesabına formalaşır. İl ərzində həyat sektoru mənfəətliyini qorumuşdur. Belə ki, sektorun xalis mənfəəti cüzi (4% və ya 1.3 mln. manat) artaraq 30 mln. manat təşkil etmişdir. Mənfəətlilik əsasən il ərzində əməliyyat gəlirlərinin 78 mln. manat artımı, əməliyyat xərclərinin isə 43 mln. manat azalması hesabına təmin edilib. Mənfəətliyə mənfi təsir edən amil isə 46 mln. manat məbləğində ehtiyatların dəyişməsi olmuşdur. Qeyri-həyat sektorunun mənfəətliyi isə 42% (21.7 mln. manat) azalaraq 30 mln. manat təşkil etmişdir. Bu azalmanın əsas drayveri kimi xalis sığorta ehtiyatında dəyişmələrin ötən illə müqayisədə 9.8 dəfə və ya 39.8 mln manat artması çıxış etmişdir. Eyni zamanda, əsas əməliyyat mənfəətinin 32.0 mln. manat, digər gəlirlərin 4.0 mln manat artması, sair xərclərin isə 1.4 mln. manat azalması xalis mənfəətin azalma tempini zəiflətmişdir

Sığorta sektoru üzrə ROE əmsalı keçən ilə nisbətdə 3.0 f.b. azalaraq 12.8%, ROA əmsalı isə 1.2 f.b. azalaraq 4.7% olmuşdur.

Qrafik 73. Həyat sığorta şirkətlərinin mənfəətlilik göstəriciləri, mln. manatla



Mənbə: AMB

Qrafik 74. Qeyri-həyat sığorta şirkətlərinin mənfəətlilik göstəriciləri, mln. manatla



Mənbə: AMB

Sığorta sektoru kapitalı tələb olunan məcmu kapital normativlərini üstələyir. Ümumilikdə 2021-ci ilin sonuna sığorta sektorunun (müstəsna təkrarsığortaçı ilə birilikdə) balans kapitalı 491 mln. manat, məcmu kapitalı isə 327 mln. manat təşkil edib. Həyat sığortası üzrə məcmu kapital tələb olunan kapitaldan 1.7 dəfə (42 mln. manat) yüksək olaraq 99 mln. manat təşkil etmişdir. Analoji göstərici qeyri-həyat sektoru üçün isə 1.7 dəfə (77 mln. manat) yüksək olaraq 184 mln. manat təşkil etmişdir. Sektorun maliyyə dayanıqlığının gücləndirilməsi və kapitalın risk əsaslı hesablanılmasının təmini məqsədilə Solvency II standartları üzrə metodoloji çərçivənin hazırlanması sığorta sektorunun inkişafı proqramının əsas prioritetlərindəndir.

Qrafik 75. Məcmu və tələb olunan kapitalın dinamikası, mln. manatla



Mənbə: AMB

Kapital bazarı

İqtisadi artımın bərpası və daxili tələbin genişlənməsinə paralel olaraq kapital bazarı da genişlənmişdir. 2021-ci ildə qiymətli kağızlar bazarının ümumi ticarət dövriyyəsi əvvəlki illə müqayisədə 19% artaraq 16.9 mlrd. manata yüksəlmişdir. Hesabat dövründə korporativ qiymətli kağızların ilkin bazarında 51%, dövlət istiqrazları bazarında 46%, repo bazarında isə 3.3 dəfə artım qeydə alınmışdır.

Qrafik 76. Kapital bazarının dövriyyəsi, mlrd. manatla



Mənbə: AMB

Emitentlərin və investorların kapital bazarına çıxış imkanlarının artırılması istiqamətində stimullaşdırıcı tədbirlər görülmüşdür. Özəl sektorun kapital bazarından maliyyələşmə təşəbbüslərinin artırılması məqsədilə listinq tələbləri sadələşdirilmiş, emitentlər və investorlar üçün stimullaşdırıcı tarif rejiminin tətbiqinə başlanmışdır. Eyni zamanda, korporativ qiymətli kağızların kütləvi təklifinin stimullaşdırılması məqsədilə Bakı Fond Birjası tərəfindən anderraytinq xidməti göstərən investisiya şirkətlərinin mükafatlandırılması mexanizmi tətbiq edilmişdir. Qeyd edilən stimulların tətbiqi nəticəsində qiymətli kağızların kütləvi təklifində dinamik artım qeydə alınmışdır.

Qrafik 77. İlkin və təkrar bazar əməliyyatlarının həcmi, mlrd. manatla



Mənbə: AMB

Maliyyə Nazirliyi tərəfindən emissiya edilən dövlət istiqrazları bazarının həcmində artım müşahidə edilmişdir. “Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya”ya uyğun olaraq 2021-ci ilin sonunda dövriyyədə olan dövlət istiqrazlarının həcmi əvvəlki ilin sonu ilə müqayisədə 46% artaraq 2.5 mlrd. manata yüksəlmişdir. Dövlət istiqrazlarının yerləşdirilməsi üzrə ilkin bazar əqdlərinin həcmi 29% artaraq 1.5 mlrd. manata yüksəlmiş, bu dövrdə təkrar bazar əməliyyatları 83% artaraq 955 mln. manata çatmışdır. Hesabat ilində ilk dəfə tədavül müddəti yeddi il olan dövlət istiqrazlarının emissiyasına başlanmışdır. Bu buraxılış dövlət qiymətli kağızlar bazarının beynəlxalq təcrübəyə uyğunlaşdırılması, gəlirlilik əyrisinin formalaşdırılması, habelə girov bazasının genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Qrafik 78. Dövriyyədə olan dövlət istiqrazlarının həcmi, mlrd. manatla



Mənbə: AMB

Dövlət istiqrazları bazarının genişlənməsi fonunda repo bazarında əməliyyatların həcmi 7.2 mlrd. manata yüksəlmişdir. Dövriyyədə olan dövlət istiqrazlarının həcminin artımı fonunda maliyyə institutları tərəfindən repo əməliyyatları aktiv istifadə edilmiş, əlverişli borclanma və investisiya aləti olmuşdur. Hesabat ilində repo əməliyyatlarının 95%-i dövlət istiqrazları ilə aparılmışdır. Bu dövrdə banklararası repo bazarının həcmi 1.4 mlrd. manat, digər repo əməliyyatlarının həcmi isə 5.8 mlrd. manat təşkil etmişdir.

Qrafik 79. Repo bazarının dinamikası, mlrd. manatla



Mənbə: AMB

Qiymətli kağızlar bazarında ticarət dövriyyəsinin artması nəticəsində investisiya şirkətlərinin aktivlərində və gəlirliyində artım müşahidə olunmuşdur. 2021-ci ilin sonunda investisiya şirkətlərinin aktivləri 84.2 mln. manata yüksəlmişdir. Dövr ərzində iki investisiya şirkətinə investisiya xidmətlərinin göstərilməsi üçün lisenziya verilmiş və investisiya şirkətlərinin sayı 12-yə çatmışdır. Bununla yanaşı, investisiya şirkətlərinin müştəri bazası da genişlənmişdir. 2021-ci ildə müştəri aktivləri 127% artaraq 912 mln. manat olmuşdur. Hesabat ilində investisiya şirkətlərinin mənfəəti 2.7 mln. manat artaraq 8.7 mln. manata çatmışdır.

Qrafik 80. İnvestisiya şirkətlərinin müştəri aktivlərinin dinamikası, mln.manatla



Mənbə: AMB

Kapital bazarının qarşısında duran əsas hədəflərdən biri real sektorun qiymətli kağızlar bazarı vasitəsilə maliyyələşməsi üzrə fəallığı artırmaqdır. Real sektorun korporativ istiqrazlar vasitəsilə maliyyələşməsində müəyyən irəliləyişlərə baxmayaraq, səhm bazarının aktivləşməsində bəzi maneələr qalmaqdadır. Özəl sektorda korporativ idarəetmə standartlarının zəif inkişaf etməsi, əhali və biznes subyektləri arasında kapital bazarı və alətləri haqqında məlumatlılıq səviyyəsinin aşağı olması kimi amillər kapitalın qiymətli kağızlar bazarı vasitəsilə cəlb edilməsini məhdudlaşdırır. Mərkəzi Bank kapital bazarının inkişaf etdirilməsi məqsədilə fəaliyyət istiqamətinə uyğun olaraq, hüquqi çərçivənin beynəlxalq standartlara uyğunlaşdırılması, bazar infrastrukturunun təkmilləşdirilməsi, həmçinin bazarda tələb və təklifin dəstəklənməsi üzrə işlər aparır.

Qrafik 81. İnvestisiya şirkətlərinin mənfəətliliyi



Mənbə: AMB

Kapital bazarının institusional inkişafı üzrə çağırışlar eyni zamanda bazar infrastrukturunun müasirləşdirilməsini tələb edir. Bu istiqamətdə Mərkəzi Bank tərəfindən kapital bazarında ticarət və ticarətsonrası əməliyyatları əhatə edən mərkəzləşdirilmiş əməliyyat sisteminin qurulması, qiymətli kağızların buraxılışı və ticarəti üzrə əməliyyatların müasir texnoloji standartlara uyğunlaşdırılması və investorlar üçün fond birjasında məsafədən ticarət imkanlarının formalaşdırılması nəzərdə tutulur. Əlavə olaraq, emitentlərin kapital bazarından maliyyələşmə proseslərinin çevikliyinin artırılması məqsədilə Mərkəzi Bank, Milli Depozit Mərkəzi və Bakı Fond Birjası arasında vahid portalın yaradılmasına başlanmışdır. Sistemin tətbiqi ilə qiymətli kağızların qeydiyyatı üzrə proseslərin vahid pəncərə sistemi ilə elektron qaydada həyata keçirilməsi mümkün olacaqdır.

Qrafik və cədvəllər

Qrafik 1. Real ÜDM artım proqnozları, faizlə 7
Qrafik 2. Əmtəə qiymətlərinin dəyişməsi, faizlə 8
Qrafik 3. Qeyri-neft sektoru sahələrinin iqtisadi artım tempi.....10
Qrafik 4. Əsas vəsaitə investisiyaların strukturu 11
Qrafik 5. İdxal və ixracın dinamikası, mlrd. manatla 12
Qrafik 6. Mərkəzi Bankın və Dövlət Neft Fondunun valyuta ehtiyatları, mlrd. ABŞ dolları 12
Qrafik 7. Dövlət büdcəsinin gəlir və xərcləri, mlrd. manatla 13
Qrafik 8. Beynəlxalq təşkilatların Azərbaycan üzrə real ÜDM artım proqnozları 14
Qrafik 9. Maliyyə sisteminin aktivləri.....15
Qrafik 10. Bank sisteminin aktiv və öhdəliklərinin dinamikası, mlrd. manatla.....16
Qrafik 11. Bank sisteminin aktiv və öhdəliklərinin strukturunun dinamikası, mlrd. manatla 17
Qrafik 12. HHİ indeksi 17
Qrafik 13. BSFİ indeksi 18
Qrafik 14. Fiziki və hüquqi şəxslərin depozit portfelinin dinamikası, mlrd. manatla 19
Qrafik 15. Xarici borcun dinamikası, mln. ABŞ dolları.....20
Qrafik 16. Bank sektoru üzrə cəlb olunmuş vəsaitlərin strukturunun dinamikası, mlrd. manatla 20
Qrafik 17. Kredit portfeli və ÜDM-in artım tempinin müqayisəsi.....21
Qrafik 18. Kredit portfelinin illik dinamikası, mlrd. manatla.....22
Qrafik 19. Kredit portfelinin strukturunun dinamikası, mln. manatla 21
Qrafik 20. Biznes portfelinin illik dinamikası, mln. manatla 23
Qrafik 21. Yeni verilmiş kreditlərin sahələr üzrə strukturunun dinamikası, mln. manatla.....23
Qrafik 22. MKOS subyektlərinə verilən kreditlərin dinamikası, mlrd. manatla 24
Qrafik 23. Sahibkarlıq subyektlərinə verilmiş kreditlərin maliyyələşmə mənbələrinə görə strukturu.....24
Qrafik 24. İstehlak kreditləri portfelinin ÜDM-ə nisbəti, HP trendi %-lə 25
Qrafik 25. Bank sektorunun risk xəritəsi 28
Qrafik 26. Bank sektoru üzrə QİK portfelinin dinamikası.....29
Qrafik 27. Dünya ölkələrində QİK əmsalı.....29
Qrafik 28. İqtisadiyyatın sahələri üzrə QİK portfelinin strukturu 30
Qrafik 29. İstehlak portfeli üzrə borcalana strukturu, faizlə 30
Qrafik 30. Restrukturizasiya edilmiş portfelin dinamikası.....31
Qrafik 31. Depozit portfelinin dollarlaşması 32
Qrafik 32. Fiziki şəxslərin depozit portfelinin valyuta bölgüsü, mlrd. manatla.....33
Qrafik 33. Hüquqi şəxslərin depozit portfelinin valyuta bölgüsü, mlrd. manatla.....33
Qrafik 34. Kredit portfelinin valyuta strukturu və dinamikası 34
Qrafik 35. Kredit portfelnin xarici valyutada payı.....34
Qrafik 36. Likvid aktivlərinin strukturunun dinamikası, mlrd. manatla.....36
Qrafik 37. Ölkələr üzrə likvid aktivlərin aktivlərdə payı göstəricisi 36
Qrafik 38. Likvid aktiv komponentlərinin likvid aktivlərdə payının dinamikası.....37
Qrafik 39. Likvid aktivlərin valyuta strukturunun dinamikası, mlrd. manatla 37
Qrafik 40. Aktiv və öhdəliklərin müddət strukturu.....38
Qrafik 41. Kredit portfelinin depozit portfelinə nisbəti göstəricisinin dinamikası 38
Qrafik 42. Bank sisteminin mənfəətliyi, mln. manatla.....39
Qrafik 43. Mənfəət və zərərlə işləyən bankların sayı və dinamikası, mln. manatla 39
Qrafik 44. Du-pont - ROE-in dekompozisiyası təhlili.....40

Qrafik 45. Sektor üzrə mənfəətin dekompozisiyası və dinamikası, mln. manatla 40
Qrafik 46. Bank sektorunun səmərəlilik göstəriciləri 41
Qrafik 47. Faiz gəlirlərinin strukturu.....41
Qrafik 48. Faiz xərclərinin strukturu.....42
Qrafik 49. Kapital adekvatlığının dinamikası, mln. manatla 43
Qrafik 50. Kapitalın strukturunun dinamikası, mln. manatla.....44
Qrafik 51. Kapital və RÜÖA-nın dinamikası.....45
Qrafik 52. Kapital adekvatlığının beynəlxalq müqayisəsi 45
Qrafik 53. Kredit portfelinin ÜDM-ə nisbəti, HP Trendi ilə 46
Qrafik 54. Stress test nəticəsində bank sisteminin kapital adekvatlığı 48
Qrafik 55. Bədbin ssenaridə kapital adekvatlığı göstəricisinə təsir kanalları 48
Qrafik 56. Bank olmayan kredit təşkilatlarının aktivlərinin dinamikası, mln. manatla.....50
Qrafik 57. BOKT-lərin kredit portfelinin strukturu, mln. manatla.....51
Qrafik 58. BOKT-lərin öhdəliklərinin dinamikası, mln.manatla 51
Qrafik 59. BOKT-lərin mənfəət göstəriciləri 52
Qrafik 60. Sığorta haqlarının dinamikası, mln.manatla 53
Qrafik 61. Sığorta ödənişlərinin dinamikası, mln.manatla 54
Qrafik 62. Həyat sığortası haqlarının siniflər üzrə strukturu, mln.manatla.....54
Qrafik 63. Qeyri-həyat sığortası haqlarının siniflər üzrə strukturu, mln.manatla.....55
Qrafik 64. Həyat sığortası ödənişlərinin siniflər üzrə strukturu, mln.manatla.....55
Qrafik 65. Qeyri-həyat sığortası ödənişlərinin siniflər üzrə strukturu, mln.manatla.....56
Qrafik 66. Sığorta siniflərinin haqlar üzrə strukturu.....56
Qrafik 67. Sığorta sektorunun penetrasiya səviyyəsi.....57
Qrafik 68. Sığorta sektoru üzrə penetrasiyanın digər ölkələrlə müqayisəsi.....57
Qrafik 69. Sığorta sektorunun aktivləri, mln.manatla 57
Qrafik 70. Aktivlərin komponentlərinin dinamikası,mln.manatla 58
Qrafik 71. Sığorta şirkətlərinin yerli banklarda vəsaitləri, mln.manatla.....58
Qrafik 72. Sığorta sektorunun yüksək zərərli 3 sığorta sinifi 58
Qrafik 73. Həyat sığorta şirkətlərinin mənfəətlilik göstəriciləri, mln.manatla.....60
Qrafik 74. Qeyri-həyat sığorta şirkətlərinin mənfəətlilik göstəriciləri, mln.manatla.....60
Qrafik 75. Məcmu və tələb olunan kapitalın dinamikası, mln. manatla.....60
Qrafik 76. Kapital bazarının dövriyyəsi, mlrd. manatla.....61
Qrafik 77. İlkin və təkrar bazar əməliyyatlarının həcmi, mlrd.manatla 62
Qrafik 78. İlkin və təkrar bazar əməliyyatlarının həcmi, mlrd.manatla 62
Qrafik 79. Repo bazarının dinamikası, mlrd. manatla 63
Qrafik 80. İnvestisiya şirkətlərinin müştəri aktivlərinin dinamikası, mln manatla.....63
Qrafik 81. İnvestisiya şirkətlərinin mənfəətliliyi.....64

Cədvəl 1. Fiskal balansın və dövlət borcunun ÜDM-də payı, faizlə 9
Cədvəl 2. Kapital adekvatlığı əmsalına görə bankların qruplaşdırılması.....44

Azərbaycan Respublikası Mərkəzi Bankı

Tel.: (+99412) 493 11 22

http://www.cbar.az

Ünvan: AZ1014, Bakı, R.Behbudov küçəsi, 90